28 sentyabr 2022 №71 (1944)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident və birinci xanım Yuxarı Gövhər ağa məscidində bərpa işləri ilə tanış olublar

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya gəliblər. Prezident və birinci xanım şəhərdəki Yuxarı Gövhər ağa məscidini ziyarət edib, burada aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.



Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə məlumat verib. Bildirilib ki, tarixi Yuxarı Gövhər ağa məscidində bərpa işləri 2021-ci ilin noyabr ayından başlayıb. Konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universitetinin nəzdindəki restavrasiya və konservasiya laboratoriyasına aparılır.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb.

Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

# Şəhadət və Zəfər yolunun başlandığı yer

### Vətənin qəhrəman övladları 2020-ci ilin 27 sentyabrında buradan ölümsüzlüyə yürümüşlər

Şəhidlərimizin şərəfinə bu abidə – bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı – Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri – Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik.




Prezident İlham Əliyev bu sözləri sentyabrın 27-də Füzuli rayonunun Qaraxanbəyli kəndində, Vətən müharibəsində ilk şəhidlərimizin ölümsüzlüyə qovuşduğu yerdə qoyulan memorialın önündə deyib.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva memorialın önünə gül dəstələri qoyublar.

"Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik" deyən Prezident İlham Əliyev bildirib ki, 44 günlük Vətən müharibəsi şanlı tariximizdir: "Azərbaycan xalqı bütün gücünü səfərbər edib, yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz – bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq".

Dövlət başçısı qeyd edib ki, iki il əvvəl bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi: "Öz canını fəda edirdi ki, üçrəngli bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın".

Prezident vurğulayıb ki, məhz bu istiqamətdən düşmənin birinci müdafiə xətti yarılmış və Zəfər yürüşümüz başlanmışdı: "44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq".

Dövlət başçısı bildirib ki, şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq: "Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

## Mədəniyyət naziri UNESCO-nun konfransında iştirak edəcək

Mondiacult 2022
México
unesco

28-30 sentyabr tarixində Meksikanın paytaxtı Mexiko şəhərində UNESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin Mədəni Strategiya və Dayanıqlı İnkişafa dair Dünya Konfransı ("Mondiacult 2022") keçiriləcək. Mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti konfransda iştirak edəcək.

"Mondiacult-2022" UNESCO tərəfindən irəli sürülən təşəbbüslərə əsaslanaraq davamlı inkişaf naminə mədəniyyət üzrə qlobal siyasət dialoquna yeni təkan verməyi hədəfləyir.

Konfransa 100-dən artıq ölkədən mədəniyyət nazirləri və digər rəsmilərin, BMT institutları, vətəndaş cəmiyyəti təşkilatları təmsilçilərinin qatılacağı gözlənilir.

Səfər çərçivəsində nazir Anar Kərimovun "İrs və mədəni müxtəliflik böhran dövründə" mövzusunda çıxışı, habelə ikitərəfli görüşləri nəzərdə tutulur.

# Xalqımıza Zəfər duyğusu yaşadanlar unudulmayacaq

Müasir tariximizə qızıl hərflərlə yazılan və şanlı Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin ikinci ildönümü tamam oldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatına cavab olaraq əks-hücumla əzəli torpaqlarımızı azad etmək üçün haqq mübarizəsinə başladı. 44 gün ərzində Vətən oğullarının misli görünməmiş şücaəti ilə otuzillik işğala son qoyuldu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Ordumuz düşmən üzərində parlaq Qələbə çalıb xalqımıza əbədi Zəfər ruhu bəxş etdi...

Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan edilib.

Bu il də xalqımız Anım Günündə şəhidlərinə sonsuz ehtiramını bildirmək üçün qəhrəmanların uyuduğu məzarlıqları ziyarət edib, Vətən torpağını canı-qanı bahasına azad edən, qoruyan oğulların xatirəsini minnətdarlıq duyğusu ilə anıb.

*davamı səh. 2-də*

## "İqlim dəyişikliyi ilə mübarizə üçün dünya səyahəti"



Sentyabrın 26-da Azərbaycan Milli İncəsənət Muzeyində "Hippolar: iqlim dəyişikliyi ilə mübarizə üçün dünya səyahəti" adlı sərgi açıldı.

Sərgi Azərbaycan Milli İncəsənət Muzeyi və BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərəfdaşlığı ilə ərsəyə gəlib.

*davamı səh. 2-də*

## VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı başa çatıb

Mədəniyyət Nazirliyi və bir sıra qurumların tərəfdaşlığı ilə 21-25 sentyabr tarixində keçirilən VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı başa çatıb.

Sentyabrın 25-də Nizami Kino Mərkəzində festivalın bağlanışı və qaliblərin mükafatlandırılması mərasimi gerçəkləşib. Tədbirdə Fransanın ölkəmizdəki səfiri Zakari Qros, Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov və digər qonaqlar iştirak ediblər.

Builki mövzusu "Təkamülə qarşı inqilab" olan festivalda 33 ölkədən 60-dan çox film yarışıb.

"Ən yaxşı beynəlxalq qısametrajlı sənədli film" kateqoriyası üzrə Marita Tevzadze və Ana Jeqnaradzenin (Gürcüstan) "Hey, günəş" filmi qalib olub. "Ən yaxşı yerli qısametrajlı sənədli film" kateqoriyası üzrə rejissor Mətləb Muxtarovun "12/35" filmi birinci yerə layiq görülüb.

Rejissor Amil Amalın "Vulkan üstündə ev" filmi isə münsiflər heyətinin xüsusi mükafatını qazanıb. Rişi Çandnanın (Hindistan) "Festival posteri" və Sarah Bahramcahanın (İran) "Uşaqsız" filmləri də xüsusi mükafatlara layiq görülüb.

*davamı səh. 3-də*

## "Şuşaya salam" deyənlər




"Şuşa İli" çərçivəsində reallaşan beynəlxalq layihələrə daha biri əlavə olundu. Sentyabrın 23-də Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi (AYB) və "Space" Müstəqil Teleradio Şirkətinin birgə təşkilatçılığı ilə reallaşan "Şuşaya salam" beynəlxalq poeziya layihəsinin təqdimat mərasimi keçirildi.

Layihə çərçivəsində 30 ölkədən 44 tanınmış ədəbiyyatçı və şair Şuşa üçün şeir oxuyacaq. Azərbaycandan layihəyə 8 müəllif (Anar, Ramiz Rövşən, Vahid Əziz, İlqar Fəhmi, Sayman Aruz, Əkbər Qoşalı, İmir Məmmədli, Səlim Babullaoğlu) qoşulub.

*davamı səh. 5-də*

## "Lənkəran şəhərinin mədəni inkişaf strategiyası" Avropa İttifaqının qrantını qazanıb

"Lənkəran şəhərinin mədəni inkişaf strategiyası" Avropa İttifaqı (Aİ) tərəfindən həyata keçirilən "EU4Culture" ("Avropa İttifaqı mədəniyyət naminə") layihəsinin "Şərq Tərəfdaşlığı ölkələrində iqtisadi inkişaf və sosial rifah üçün mühərrik kimi mədəniyyət və yaradıcılığın təşviqi" qrant müsabiqəsində qalib olub.

Bu münasibətlə sentyabrın 23-də Lənkəran şəhərində təqdimat keçirildi. Tədbirdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko, tərəfdaş ölkələrin Bakıdakı səfirlikləri, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov iştirak edirdi.

İlk olaraq layihə haqqında məlumat diqqətə çatdırıldı.

*davamı səh. 4-də*

Gənc Tamaşaçılar Teatrı mövsümü premyera ilə açıb



*səh. 5*

Sivilizasiyalar Alyansının rəhbəri Azərbaycanın "Mədəniyyət naminə sülh" kampaniyasının əhəmiyyətini vurğulayıb

*səh. 3*



Səttar Bəhlulzadənin Şuşa sevgisi

*səh. 7*

№71 (1944)
28 sentyabr 2022
www.medeniyyet.az

# "Bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq"

Bizim münasibətlərimizin gündəliyinə fikir versək, o, kifayət qədər genişdir, praktiki olaraq bütün sahələri əhatə edir. Ona görə ki, həm siyasi, həm iqtisadi, həm nəqliyyat, energetika və humanitar sahələrdə bütün göstəricilər göz qabağındadır, biz, həqiqətən, yaxşı dinamika görürük. Əsas məsələ nəticəyə hədəflənməkdir. Çünki razılığa gəldiyimiz bütün məsələlər həyata keçirilir.

Prezident İlham Əliyev bu sözləri sentyabrın 26-da Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycanla Rusiya arasında iqtisadi-ticari sahədə, informasiya, kommunikasiya, nəqliyyat və digər sahələrdə səkkiz yol xəritəsi razılaşdırılıb və həyata keçirilir. "Əlbəttə, regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir. Biz bu yaxınlarda Səmərqənddə Rusiya Prezidenti ilə görüşümüzdə bu barədə danışmışıq. Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir", – deyə İlham Əliyev vurğulayıb.

Prezident qeyd edib ki, Azərbaycanın regionda sülh və təhlükəsizliklə bağlı təklif etdiyi gündəlik də birmənalıdır: "Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq".

Vyaçeslav Volodin Rusiya-Azərbaycan münasibətlərinin daha çox iki ölkə prezidentlərinin sayəsində inkişaf etdiyini vurğulayıb və bu xüsusda dövlət başçılarının bu ilin fevralında imzaladığı "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin önəmini qeyd edib: "Bu, həqiqətən, strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyədir".

# Hüseyn Cavidin 140 illiyi ilə bağlı tədbirlər planı həyata keçiriləcək

2022-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 140 ili tamam olur. Prezident İlham Əliyev sentyabrın 24-də böyük ədibin 140 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazıb. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirib, humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoyub. Bu əsərlər milli teatr salnaməsində "Cavid teatrı" kimi məxsusi yer tutur.

Qeyd olunur ki, Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qoruyub. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir.

Sərəncamda Mədəniyyət Nazirliyinə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Hüseyn Cavidin 140 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

# "Media Reyestrinin aparılması Qaydaları" təsdiq edilib

Prezident İlham Əliyevin sentyabrın 26-da imzaladığı fərmanla "Media Reyestrinin aparılması Qaydaları" təsdiq edilib.

Media Reyestrinin tərtib edilməsi "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununda nəzərdə tutulub.

Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Media Reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini təmin etməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb.

# Dövlət Teatr Muzeyində anım tədbiri




Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 27 Sentyabr – Anım Günü ərəfəsində "Ömrünü Vətənə bağışlayanlar" adlı tədbir təşkil edilib.

Sentyabrın 26-da keçirilən tədbirə şəhid ailələri, II Qarabağ müharibəsi iştirakçıları, tələbələr qatılıblar.

Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova bildirib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələri genişmiqyaslı əks-hücum əməliyyatına başlayıb. Tariximizə Vətən müharibəsi kimi daxil olan 44 günlük savaşda işğal altında olan torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin qanı və canı bahasına azad olunub, üçrəngli bayrağımız yenidən Qarabağda ucalaraq əzəmətlə dalğalanır.

Ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş igidlərə dərin ehtiram əlaməti olaraq, Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd olunur.

Muzeyin əməkdaşı Əli Abuzərov erməni qəsbkarlarının tarix boyu xalqımıza qarşı apardığı təcavüzkar siyasətdən, törətdikləri cinayətlərdən və müzəffər Ordumuzun qazandığı Qələbədən danışıb.

Şəhidlərin ailə üzvləri, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə iştirak edən qazilər fikir və düşüncələrini, xatirələrini bölüşüblər.

# Xalqımıza Zəfər duyğusu yaşadanlar unudulmayacaq

## Mədəniyyət Nazirliyinin nümayəndələri şəhidlərimizin xatirəsini yad ediblər

əvvəli səh. 1-də

Sentyabrın 27-də mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və nazirliyin əməkdaşları Şəhidlər xiyabanına gələrək Vətən övladlarının ruhları qarışısında ehtiramlarını bildirdilər.

Daha sonra İkinci Fəxri xiyaban ziyarət olundu. Şəhidlərimizin əziz xatirəsi yad edildi, məzarları önünə tər qərənfillər düzüldü.

Şəhidlər xiyabanında jurnalistlərə açıqlama verən Elnur Əliyev qeyd etdi ki, millət olaraq həmişə şəhidlərimizin xatirəsini uca tutmalıyıq. Onların bu yolu seçib şəhid olmaq kimi ali məramlarını dərk etməliyik: "Bu gün xalq olaraq hamımız eyni hissləri keçiririk. Öz mədəniyyətimizə, tariximizə sahib çıxırıq. Mən bütün şəhidlərimizə Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm. Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!".

***



Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması uğrunda üç minə yaxın şəhid vermişik. Onların sırasında peşəkar hərbçilərlə yanaşı müxtəlif sahələrdə çalışan, o cümlədən vaxtilə mədəniyyət sektorunda fəaliyyət göstərmiş insanlar da var.

Döyüşlərdə iştirak etmiş qəhrəman mədəniyyət işçilərindən 7 nəfər – Füzuli rayon 3 nömrəli Uşaq musiqi məktəbinin müəllimi Toğrul Rüfət oğlu Hacıyev, Qobustan şəhər Rəşid Behbudov adına Uşaq incəsənət məktəbinin müəllimi Rauf İlyas oğlu Əliyev, Gəncə şəhər Nizami məqbərəsinin bələdçisi Hikmət Lətif oğlu Məmmədov, Göyçay şəhər Uşaq musiqi məktəbinin müəllimi Alim Səhrab oğlu İbrahimov, Cəbrayıl rayon Mahmudlu kənd Uşaq musiqi məktəbinin müəllimi Zamin Vahid oğlu Rəhimov, Lənkəran şəhər Mədəniyyət Mərkəzinin kurs rəhbəri Tural Rövşən oğlu Hümmətov, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının işıq operatoru Əliağa Eldəniz oğlu Məmmədov şəhidlik zirvəsinə ucalıb. Tərtər şəhər Uşaq musiqi məktəbinin müəllimi Mehman Sovet oğlu Əliyev 28 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində şəhid olub.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Xalqımıza əbədi Zəfər duyğusu yaşadanlar heç vaxt unudulmayacaq.

**Nurəddin**

# Kitabxanalarda Anım Günü

Milli Kitabxananın sərgi zalında "27 Sentyabr – Anım Günü" ilə bağlı tədbir keçirilib.

Azərbaycan torpaqlarının azad edilməsi uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov bildirib ki, 2 il öncə başlayan və 44 gün sürən II Qarabağ müharibəsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış şanlı Zəfərimizin salnaməsidir. Haqq savaşımızda çoxsaylı şəhidlər verdik. Yüz illər keçsə də, Azərbaycan xalqı heç vaxt öz şəhidlərini unutmayacaq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan bu gün bütün dünyada qalib dövlət, xalqımız isə məğrur xalq kimi tanınır.

Sonda iştirakçılar "27 Sentyabr – Azərbaycan Respublikasında Anım Günü" adlı kitab sərgisi ilə tanış olublar.

***

Sentyabrın 27-də Respublika Gənclər Kitabxanasında da Anım Günü münasibətilə tədbir təşkil olunub. Tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Kitabxananın direktoru Aslan Cəfərov, direktor müavini Xalidə Musayeva, şöbə müdirləri Tamella Məmmədova, Səadət Şəfiyeva, Günay Həsənova çıxış ediblər.

Aslan Cəfərov çıxışında vurğulayıb ki, 2020-ci il sentyabrın 27-də torpaqlarımızın azad edilməsi uğrunda başlanan Vətən müharibəsinin hər günü müasir dövlətçilik tariximizin fəxarətli səhifələridir. Zəfər tariximizi yazan şəhidlərimizin əziz xatirəsi qəlblərdə əbədi yaşayacaq.

Anım Günü ilə bağlı kitabxananın əməkdaşları tərəfindən hazırlanan videomaterial, "Sənə qələbə yaraşır, Azərbaycan əsgəri!" adlı virtual sərgi nümayiş olunub, "27 sentyabr – Zəfərə gedən yol" adlı ənənəvi kitab sərgisinə baxış keçirilib.

# "Şəhidlər ölməz, Vətən bölünməz"



Sentyabrın 27-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı anım tədbiri keçirildi. Tədbirdə şəhidlərin ailə üzvləri, yaxınları, müharibə veteranları iştirak edirdi.

Əvvəlcə şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, sonra Dövlət Himni səsləndirildi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözündə otuz ilə yaxın erməni işğalında qalan torpaqlarımızın azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı Zəfərin tariximizdəki müstəsna yerindən bəhs etdi.

Muzeyin böyük elmi işçisi Əzirə Abdullayeva Vətənin ərazi bütövlüyü uğrunda şəhid olan, yaralanan əsgər və zabitlərimizin rəşadətindən söz açdı. Qeyd etdi ki, müharibədə silah-sursatın, hərbi texnikanın böyük önəmi var. Ancaq düşmənin iradəsini qıran, onu torpaqlarımızdan vurub çıxaran və Azərbaycan bayrağını azad edilmiş torpaqlara sancan əsgər və zabitlərimizdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Çıxışlardan sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məzunları Maqsud Musazadə, Samirə Rəhimova (fortepiano), Rəna Zəkiyeva, AMK nəzdində Musiqi Kollecinin tələbəsi Elton Şıxəliyev (tar), Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdi Tuncay Əşrəfli (tar), Əli Vahidov (fortepiano) və Rafiq Ağayevin (vokal) ifalarında şəhidlərə həsr olunmuş musiqi proqramı təqdim edildi. Proqramda İ.S.Baxın "Prelüd və fuqa", V.Adıgözəlovun "Qərənfil", "Laylay", Ə.Vahidovun "Matəm prelüdü", B.Marçellonun "Adajio re minor", C.Quliyevin "Fəryad" əsərləri səsləndirildi.

Musiqilərin müşayiəti ilə şəhidlərdən bəhs edən videoçarx nümayiş olundu.

**S.Fərəcov**

# "İqlim dəyişikliyi ilə mübarizə üçün dünya səyahəti"

## Milli İncəsənət Muzeyində maarifləndirici sərgi

əvvəli səh. 1-də

Layihənin koordinatoru, muzeyin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Könül Rəfiyeva sərgi haqqında məlumat verdi. Qeyd etdi ki, layihə uşaq, yeniyetmə gəncləri iqlim dəyişiklikləri, ətraf mühitin çirkləndirilməsi problemləri və bu yolda atılması zəruri olan addımlar haqqında maarifləndirmək məqsədi daşıyır. Sərgi zamanı dünyaca məşhur müəllif Denis Tomopulosun uşaqlara ətraf mühitin çirklənməsi problemlərini və planetdə iqlim dəyişikliyi ilə mübarizə yollarını izah edən "Yer kürəsi deyir" cizgi filmi nümayiş etdiriləcək. Bundan əlavə, sərgidə Layen Haykensin şəxsi kolleksiyasından hazırkı iqlim dəyişikliyinin faciəvi nəticələrinin simvollarından birinə çevrilən canlılar – hippopotamları (begemot) əks etdirən eksponatlar nümayiş olunacaq. Sərgi gələcək nəsillərin həyat keyfiyyətinə mənfi təsir edəcək atmosferdə karbon emissiyalarının artması və ətraf mühitin deqradasiyası məsələlərini gündəmə gətirir.

Layihə çərçivəsində həmçinin gənc nəslin iqlim dəyişikliyi problemləri haqqında maarifləndirilməsinə yönəlmiş "Comics Uniting Nations" ("Millətləri birləşdirən komikslər") toplusundan nümunələr ilk dəfə Azərbaycan dilində təqdim ediləcək. Uşaqlar və gənclər üçün məlumat turları, təqdimat və müzakirələr təşkil olunacaq.

Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar incəsənət xadimi, professor Çingiz Fərzəliyev sərginin qeyri-adiliyindən söz açdı:





"Bizim muzeydə bu cür sərgi ilk dəfə təqdim olunur. Sərgidə insanın zövqü, təbiətə vurğunluğu, gözəlliyə aşiqliyi öz əksini tapıb".

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli hidrometeorologiya departamentinin rəhbəri Umayra Tağıyeva vurğuladı ki, iqlim dəyişikliyi bütün bəşəriyyəti narahat edən qlobal problemlərdən biridir: "Biz artan təhlükələri atmosfer hadisələrindən müşahidə edə bilirik. Bu problemi aradan qaldırmaq üçün mühüm addımlar atılmalıdır. Atmosferə olan təsirlər, tullantılar əhəmiyyətli dərəcədə azaldılmalıdır ki, gələcəkdə insanlar təhlükəli fəsadlarla qarşılaşmasın. Ölkəmiz müxtəlif sahələr üzrə bu məsələnin həlli üçün səylər göstərir. Eyni zamanda dövlət tərəfindən qəbul olunan strateji sənədlər bir daha onu göstərir ki, Azərbaycan yaşıl inkişaf istiqamətini seçib...".

Pakistanın Bakıdakı səfiri Bilal Haye ölkəsinin karbon emissiyalarının havaya atılması ilə bağlı fəal mübarizə apardığını dedi: "Biz bu istiqamətdə bir çox işlər görsək də, Pakistan iqlim dəyişikliyinə ən həssas olan ilk 10 ölkə arasında yer alır. Son bir neçə həftə ərzində ölkəmizin tarixində görünməmiş sellər, daşqınlar yaşandı, 1500-dən çox insan həlak oldu. Bu vəziyyətin qarşısının alınması üçün təkcə milli səviyyədə deyil, qlobal miqyasda da səylər göstərilməlidir".

UNICEF-in Azərbaycandakı nümayəndəsi Aleks Haykens bu cür sərgilərin mütəmadi olaraq keçirilməli olduğunu dedi. Söylədi ki, bir neçə il əvvəl UNICEF-in qərargahında (Nyu-York) cizgi filmləri yaradıcıları ilə əməkdaşlığa başlanılıb: "Bunun da məqsədi iqlim dəyişikliyi mövzusu ilə bağlı uşaqlar arasında maarifləndirmə işlərinin genişləndirilməsi idi. Nəticədə bu sərgidə nümayiş etdirilən qırmızı hippopotamın baş qəhrəmanı olduğu bir cizgi filmi hazırlandı. İqlim dəyişikliyi ilə mübarizə sahəsində çox işlər görülməlidir. Bu baxımdan biz Azərbaycan və digər ölkələrlə bir çox layihələr həyata keçiririk".

Çıxışlardan sonra qonaqlar sərgi ilə tanış oldular.

Bildirək ki, oktyabrın 16-dək açıq olacaq sərgi 2030-cu ilə qədər davam edəcək BMT-nin Ekosistemin Bərpası üzrə Onillik Proqramı çərçivəsində təşkil olunub.

**N.Məmmədli**

# Vətəndaşların müraciətləri dinlənilib, müəssisələrə və tarixi abidələrə baxış keçirilib

## Mədəniyyət naziri Ağdaş rayonunda olub

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Hər ay müxtəlif rayonlarda keçirilən qəbullarda sakinlərin müraciət və problemləri dinlənilir, həlli ilə əlaqədar müvafiq addımlar atılır.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov sentyabrın 23-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ağdaş, Göyçay, Ucar və Zərdab sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Ağdaş rayonunun icra başçısı Tofiq İbrahimov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Heydər Əliyev Mərkəzinə gələn Anar Kərimov mərkəzin fəaliyyəti ilə tanış olub. Məlumat verilib ki, 2014-cü ildən fəaliyyət göstərən mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar saxlanılır.

Sonra rayon Heydər Əliyev Mərkəzində nazirliyin əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Qəbulda sakinlərin müraciətləri işlə təmin olunma, işə bərpa olunma, əmək müqavilələrinin uzadılması, kadr məsələləri, uşaq musiqi məktəblərinə müəllimlərin işə qəbulu üzrə müsabiqə, heykəltəraşlıqla bağlı layihələrə cəlb olunma, tarixi abidənin şəxsi vəsait hesabına bərpası barədə və digər məsələləri əhatə edib.



Anar Kərimov vətəndaşların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

***

Mədəniyyət naziri sentyabrın 23-də Ağdaşda vətəndaşların qəbulundan sonra bir sıra mədəniyyət müəssisələrinə və tarixi abidələrə baş çəkib.

Anar Kərimov Mədəniyyət Nazirliyi tərəfindən təmiri planlaşdırılan Ağdaş Rayon Mədəniyyət Mərkəzində olub. Müəssisənin əsaslı təmir planı barədə ətraflı məlumat alan nazir görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verib.



Sonra 1986-cı ildən fəaliyyət göstərən Ağdaş Tarix-Diyarşünaslıq Muzeyinə baxış keçirilib. Nazirə məlumat verilib ki, muzey uzun müddət yerli əhəmiyyətli tarixi abidə olan Hacı Məhəmməd ağanın evində fəaliyyət göstərib. 2015-ci ildə yeni binaya köçürülən muzeyin fondunda 6758 eksponat qorunub saxlanılır, 1100-ü daimi nümayiş olunur.

Mədəniyyət naziri Ağdaş şəhərində də tanınmış kamança ifaçısı, Xalq artisti Habil Əliyevin adını daşıyan 1 nömrəli Uşaq musiqi məktəbinin fəaliyyəti ilə də tanış olub. Bildirilib ki, musiqi məktəbi Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin təşəbbüsü ilə 1937-ci ildə fəaliyyətə başlayıb. 2009-cu ildə şəhərin mərkəzində musiqi məktəbinin müasir üslubda inşa edilən yeni binasının açılışı olub. Məktəbdə hazırda fortepiano, tar, kamança, qarmon, klarnet və nağara ixtisasları üzrə tədris olunur, 460 şagird təhsil alır, 125 müəllim çalışır.

Səfər çərçivəsində 1980-ci ildə yaradılan və 400 minə yaxın kitab fondu olan Ağdaş rayon MKS-nin Mərkəzi Kitabxanasına baxış keçirilib, müəssisənin fəaliyyəti barədə məlumat alınıb. Anar Kərimov Azərbaycan və özbək ədəbi əlaqələrinin inkişafında böyük xidmətləri olmuş dramaturq, tərcüməçi, şair və ədəbiyyatşünas Maqsud Şeyxzadənin binada yerləşən ev-muzeyinə də baş çəkib. Muzeyin direktoru şairə məxsus əşyalar, əsərlər, əlyazmalar barədə məlumat verib. Bildirib ki, 1991-ci ildə yaradılan muzeydə şairə məxsus 224 eksponat saxlanılır.



Qeyd edək ki, kitabxana və muzeyin yerləşdiyi bina 1904-cü ildə inşa edilib və İsmayıl bəy Soltanbəyova məxsus olub. Tikili yerli əhəmiyyətli tarixi abidə kimi (inv. № 4061) dövlət qeydiyyatına alınıb. Nazir yerli əhəmiyyətli tarixi abidə olan Hacı Məhəmməd ağanın evini də (inv. № 4060) ziyarət edib. Məlumat verilib ki, XIX əsrə aid olan yaşayış evi XX əsrin ortalarında hərbi komissarlıq, 1986-2015-ci illərdə Tarix-diyarşünaslıq muzeyi, sonra isə Uşaq-gənclər inkişaf mərkəzi kimi istifadə olunub.

Anar Kərimov Ağdaşda daha bir yerli əhəmiyyətli memarlıq abidəsi olan Hacı Bədəl Əfəndi məscidinə (XIX əsr, inv. № 4070) gəlib, məscid binasının cari vəziyyəti ilə tanış olub. Bildirilib ki, binada uzun illər körpələr evi, uşaq bağçası fəaliyyət göstərib.

Bununla da mədəniyyət nazirinin Ağdaş rayonuna səfəri başa çatıb.

Xatırladaq ki, Anar Kərimov bir gün öncə Göyçay rayonunda bir sıra tarixi abidələrə və mədəniyyət ocaqlarına baxış keçirib, müəssisələrin maddi-texniki imkanları, cari vəziyyəti və fəaliyyət istiqamətləri haqqında məlumat alıb.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu prezidentinin Polşada görüşləri

Xəbər verdiyimiz kimi, 19-21 sentyabr tarixində Polşanın paytaxtı Varşavada VI Beynəlxalq Türkologiya Konqresi keçirilib. Konqresin tərəfdaşlarından biri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu olub.

Fondun prezidenti Günay Əfəndiyeva Polşaya işgüzar səfəri çərçivəsində bir sıra görüşlər də keçirib.

Günay Əfəndiyeva Polşada yaşayan tatar icmasının rəhbəri, ölkənin baş müftisi Tomasz Miskievicz ilə görüşüb. Görüşdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Macarıstanın Polşadakı diplomatları, həmçinin tatar icmasının nümayəndələri iştirak ediblər.

Görüş zamanı XIV əsrdən Polşada məskunlaşan türk kökənli etnik azlıqlar olan tatarların çoxəsrlik tarixi və mədəni irsinin öyrənilməsi və qorunması yönündə müzakirələr aparılıb.

Günay Əfəndiyeva Avropa ərazisində, o cümlədən Litvada və Polşada yaşayan tatar və karaimlərin mədəniyyətinin mühafizəsi istiqamətdə həyata keçirilən layihələrdən bəhs edib.

Fondun prezidenti ilə ötən il keçirilən görüşləri, eləcə də tatarların sıx məskunlaşdığı Belostok şəhəri və Sokoliki bölgəsinə edilən birgə ziyarətləri xatırladan Tomasz Miskievicz, təşkilatın türk xalqlarının qədim mədəni dəyərlərin təbliği və təşviqi yönündə fəaliyyətini yüksək qiymətləndirib. O, tatarların ölkədəki dini və sosial həyatları haqqında danışaraq onlara məxsus olan irsin mühafizəsi və təbliği barədə məlumat verib.



Günay Əfəndiyeva Polşaya səfəri çərçivəsində Frederik Şopen adına Varşava Musiqi Universitetinin rektoru Klaudiusz Baran ilə də görüşüb.

Görüş zamanı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Polşanın, eləcə də Avropanın ən qədim universitetlərindən olan Frederik Şopen adına Varşava Musiqi Universiteti arasında gələcəkdə birgə layihələrin həyata keçirilməsinin önəmi vurğulanıb, bu istiqamətdə fikir mübadiləsi aparılıb.

# Sivilizasiyalar Alyansı və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında memorandum imzalanıb

Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansı və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında anlaşma memorandumu imzalanıb.



Memorandumu Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıllı Serageldin və BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos imzalayıblar.

Mərkəzdən verilən məlumata görə, iki qurum mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi, sosial inklüzivliyin təşviqi, ksenofobiya və nifrətlə mübarizə; qarşılıqlı maraq doğuran iş sahələrində qabaqcıl təcrübə və biliklərin mübadiləsi, gənclərə yönəlmiş layihələrin, təşəbbüslərin müəyyən edilməsi və s. istiqamətlərdə əməkdaşlıq edəcək.

# XİN rəhbəri UNESCO-nu işğaldan azad edilmiş ərazilərə missiya göndərməyə çağırıb

Tariximizin faciəli səhifəsini çevirib daha yaxşı gələcək qurmağa başlaya bilərik.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu fikri sentyabrın 24-də Nyu-Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının ümumi müzakirələri çərçivəsində çıxışı zamanı vurğulayıb.

O daha sonra deyib: "İki gün əvvəl biz Ermənistan Baş nazirinin burada səsləndirdiyi bəyanatı dinlədik. Təəssüf ki, bu, erməni tərəfinin normallaşma əvəzinə qarşıdurmanı davam etdirməyə niyyətli olduğunu nümayiş etdirən növbəti bir sübut oldu. Azərbaycanda biz hesab edirik ki, regionumuz kifayət qədər qarşıdurma, dağıntılar və iztirablar görüb. Hər iki xalqın münaqişədən sonrakı normallaşmaya tam şəkildə qoşulmasının vaxtıdır, beləliklə, nəhayət, tariximizin faciəli səhifəsini çevirib uşaqlarımız üçün daha yaxşı gələcək qurmağa başlaya bilərik. Azərbaycan tərəfi öhdəliklərinə sadiqdir. Ümid edirik ki, Ermənistan, nəhayət, konstruktiv şəkildə qarşılıq verəcək və danışıqlara səmimi şəkildə qoşulacaq".



Azərbaycanın xarici işlər naziri BMT tribunasından təşkilatın təhsil, elm və mədəniyyət üzrə ixtisaslaşmış qurumuna – UNESCO-ya da səslənib: "Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı 2020-ci ildə başa çatsa da, hələ də UNESCO-nun missiyası gəlməyib".

Nazir bildirib ki, otuz il sürən işğal dövründə Azərbaycanın minlərlə mədəni irs nümunəsi Ermənistan tərəfindən dağıdılıb, talan edilib və ya mənimsənilib: "Bu ilin əvvəlində İCESCO Azərbaycana işğaldan azad edilmiş ərazilərində mədəni irsin mühafizəsi vəziyyətinin qiymətləndirilməsini həyata keçirmək üçün texniki missiya göndərib. Uzun illər ərzində Azərbaycan Ermənistanı regionda mədəni irsin qorunması və mühafizəsi üzrə qiymətləndirmə və məsləhətlər vermək üçün müstəqil, şəffaf UNESCO missiyasını dəstəkləməyə çağırıb. Mən bir daha belə bir missiyanın həyata keçirilməsinə çağırıram".

# Azərbaycanın "Mədəniyyət naminə sülh" kampaniyasının əhəmiyyəti vurğulanıb

Azərbaycanda mədəni irsin mühafizəsi sahəsində görülən tədbirlər, işğaldan azad edilmiş ərazilərdə dağıdılmış mədəni irslə bağlı məsələ Nyu-Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyası çərçivəsində xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinosla görüşündə müzakirə edilib.

XİN-dən verilən məlumata görə, Ceyhun Bayramov postmünaqişə dövrünün regionda yeni imkanlara yol açdığını qeyd edərək, bu kontekstdə həm regionda, həm də ölkələr arasında sülhün bərqərar olmasına töhfə vermək üçün BMT-nin Sivilizasiyalar Alyansının əlverişli imkanlarının olduğunu deyib. İşğaldan azad edilmiş ərazilərdə abidələrin bərpası sahəsində həyata keçirilən işlər barədə məlumat verən Ceyhun Bayramov Azərbaycanın mədəni irsin etnik və ya dini xarakterindən asılı olmadan bərpası və mühafizəsi sahəsində ardıcıl addımlar atdığını diqqətə çatdırıb.

Migel Angel Moratinos Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini bildirib. O, Azərbaycanın təşəbbüsü olan "Mədəniyyət naminə sülh" kampaniyasının əhəmiyyətini vurğulayıb və bu istiqamətdə Alyansla birgə Fəaliyyət Planının imzalandığını qeyd edib. Xatırladaq ki, "Mədəniyyət naminə sülh" kampaniyası 2021-ci ildə Azərbaycanın Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülüb.

Moratinos həmçinin Azərbaycan tərəfindən dinlərarası və sivilizasiyalararası dialoq sahəsində fəal surətdə atılan addımların əlamətdar və nümunəvi olduğunu deyib.

Görüşdə BMT-nin Sivilizasiyalar Alyansının cari ilin noyabr ayında Mərakeşdə təşkil ediləcək 9-cu tədbirinə hazırlıqla bağlı fikir mübadiləsi də aparılıb, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı başa çatıb

əvvəli səh. 1-də

Rejissor Amil Amalın "Vulkan üstündə ev" filmi isə münsiflər heyətinin xüsusi mükafatını qazanıb. Rişi Çandnanın (Hindistan) "Festival posteri" və Sarah Bahramcahanın (İran) "Uşaqsız" filmləri də xüsusi mükafatlara layiq görülüb.

İlkin Yusifin (Azərbaycan) "Mən qəhrəman axtarıram" və Səid Taci Farukinin (Fransa) "Min alov" filmi "No-Main" kateqoriyasında ən yaxşı tammetrajlı sənədli filmlər kimi qalib olub. Bu kateqoriyada Mileyn Quiard-Şmidin (Belçika) "Paça hekayələri" filmi ən yaxşı qısametrajlı sənədli film elan edilib. "No-Main" kateqoriyasında münsiflər heyətinin xüsusi mükafatına isə Siril Kornunun (Fransa) "Mamodi, sonuncu baobab qazıcısı" filmi sahib çıxıb.

"Ən yaxşı tammetrajlı sənədli film" kateqoriyasında qalib isə polşalı rejissor Pavel Lozinskinin "Balkon" filmi olub. Bu kateqoriya üzrə münsiflər heyətinin xüsusi mükafatı Helmut Dosantosun




"Meksika tanrıları" və Nikolas van Hemelrik və Kler Vayskopfun "Alis" filmlərinə verilib.

Mərasimdə həmçinin kinematoqrafiyada xüsusi xidmətlərinə görə Azərbaycan və beynəlxalq kino sənəti ustalarına xüsusi "iCyborg" mükafatları da təqdim edilib. Onların arasında çoxsaylı mükafatlar laureatı, Kann Film Festivalının qalibi Sergey Dvortsevoy, polşalı sənədli film rejissoru və ssenarist, bir sıra festivalların laureatı Pavel Lozinski, dünya şöhrətli azərbaycanlı fotojurnalist Reza Deqati və ölkəmizin mərhum kinoaktyoru (1946-1993) də adı var. Səhnə adı ilə daha çox "Ələkbər əmi" kimi tanınan Əməkdar artist Ələkbər Hüseynov (1961-2007) da uşaqlar üçün teatr sənətinin inkişafındakı xidmətlərinə görə "iHuman" mükafatına layiq görülüb.

Qeyd edək ki, beş gün davam edən festivalda filmləri Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov, Kann Film Festivalının qalibi Sergey Dvortsevoy, məşhur fotojurnalist Reza Deqati və "Emmy" mükafatı laureatı, "Oskar" mükafatının nominantı, prodüser Kirstin Barfod və digərləri qiymətləndiriblər.

Hər il festival dünyaca məşhur bir rejissorun filmlərindən ibarət silsilə nümayiş təşkil edir. Bu il qazaxıstanlı rejissor, 2009-cu ildə "Oskar" mükafatının nominantı ("Zanbaq" filmi) olmuş Sergey Dvortsevoyun dörd filmindən ("Cənnət", "Qaranlıqda", "Çörək günü", "Magistral") ibarət retrospektiv hazırlanıb nümayiş olunub.

Festivalda filmlər Nizami Kino Mərkəzi, Azərbaycan Dövlət Film Fondu, YARAT Müasir İncəsənət Məkanı, ARTIM Layihə Məkanı və "Kapellhaus" – Alman-Azərbaycan Mədəniyyət Birliyində nümayiş etdirilib.

Xatırladaq ki, "DokuBaku" 2017-ci ildə İmam Həsənov və Veronika Yanatkova tərəfindən təsis olunan Azərbaycanda ilk beynəlxalq sənədli film festivalıdır.

**Nurəddin**

# Qibləgahımız Vətənin şəhid adlı səcdəgahı var...

Bölgələrdəki mədəniyyət müəssisələrində Anım Günü münasibətilə müxtəlif tədbirlər keçirilib.




İsmayıllı Regional Mədəniyyət İdarəsi (RMİ) və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "44 günün bir anı" adlı bədii kompozisiya nümayiş olunub. Tədbirdə rayon İcra Hakimiyyəti, hüquq-mühafizə orqanlarının rəhbərləri, regional idarənin əməkdaşları, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra Mədəniyyət Mərkəzinin Xalq teatrı "44 günün bir anı" kompozisiyasını təqdim edib.

***

Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzində "Şəhidlik zirvəsi" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə canlarını qurban verən şəhidlərin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağını vurğulayıblar. Sonra məktəblilər şəhidlərə həsr olunan şeirlərdən ibarət kompozisiya ilə çıxış ediblər.

Qax rayon MKS-nin C.Cabbarlı adına Mərkəzi Kitabxanasında "Şanlı tarixi yaşadanlar və yazanlar" adlı kitab və uşaqların rəsmlərindən ibarət sərgi təşkil olunub.

***



Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Zəfər tariximizin başlanğıcı" adlı tədbir keçirilib. Tədbirdə Anım Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib, "27 sentyabr – Zəfərə aparan yol" adlı sərgiyə baxış olub.

***

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində "Vətən adlı qibləgahımın şəhid adlı səcdəgahı var" adlı şeir qiraəti müsabiqəsi təşkil olunub. Tədbirdə Milli Qəhrəman Mübariz İbrahimov haqqında hazırlanmış animasiya filmi nümayiş etdirilib. Sonda müsabiqənin qalibləri mükafatlandırılıb.

Qazax Dövlət Rəsm Qalereyasının əməkdaşları Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidi Xaliddin Veyislinin ailəsini ziyarət ediblər.

Tovuz Dövlət Rəsm Qalereyasının əməkdaşları isə II Qarabağ müharibəsi şəhidi Tovuz rayon sakini Amil Rüstəmovun ailəsinə baş çəkiblər.

***

Ağdaş RMİ Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidi, baş leytenant Ağaqardaş Abbasovun ailəsini ziyarət ediblər.

Göyçay rayonunun Çərəkə kəndində Birinci Qarabağ müharibəsi şəhidi İlqar Rəhim oğlu Nəbiyevin xatirəsinə inşa olunan bulaq istifadəyə verilib.

İlqar Nəbiyev 1975-ci ilin sentyabrında Çərəkə kəndində dünyaya göz açıb. Orta məktəbi bitirib, Ali Hərbi Məktəbə qəbul olunub. Birinci Qarabağ müharibəsi başlayanda təhsilini yarımçıq qoyub cəbhəyə gedib. 1994-cü il yanvar ayının 11-də Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində şəhid olub.

***



Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Tarix yazan igidlər" mövzusunda tədbir keçirilib. Muzeyin direktoru Əntiqə Tağıyeva çıxış edərək 44 günlük Vətən müharibəsində əsgər və zabitlərimizin fədakarlığından, Azərbaycan xalqının mübarizə əzmindən, xalq-ordu birliyi nəticəsində qazandığımız Qələbədən danışıb.

***

Sabirabad RMİ Şirvan şəhər Mədəniyyət Mərkəzinin Şirvan Folklor evi "Anım günüm, qürur günüm" adlı tədbir keçirib. Tədbirdə şagirdlər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

***




Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində keçirilən anım tədbirində 44 günlük Vətən müharibəsindən bəhs edən mühazirə dinlənilib, Daşkəsəndən olan şəhidlər haqqında videoçarx nümayiş etdirilib.

***

Sumqayıt RMİ Abşeron rayon MKS-nin bir qrup əməkdaşı Vətən müharibəsi şəhidi Emin Ağazadənin ailəsini ziyarət edib.

Qubadlı rayon mədəniyyət işçiləri Vətən müharibəsi şəhidləri Vüsal Allahverdiyev və mayor Elçin Alıyevin ailəsinə baş çəkiblər.

***

Kürdəmirdə Anım Gününə həsr olunan "Qarabağ Azərbaycandır!" devizi altında rəsm və əl işlərindən ibarət sərgi təşkil edilib. Heydər Əliyev parkında keçirilən sərgidə Kürdəmir RMİ Kürdəmir Mədəniyyət Mərkəzinin dərnək üzvlərinin və rayon məktəblilərinin əl işləri və rəsmləri nümayiş olunub.

Kürdəmirdə I Qarabağ müharibəsi şəhidi Vahid Əhmədovun adını daşıyan abidə kompleksinin açılışı olub. Açılış mərasimində rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, şəhid ailələri, məktəblilər, kənd sakinləri, şəhidin yaxınları iştirak ediblər.

Beyləqan rayon Mədəniyyət Mərkəzində mədəniyyət müəssisələrinin Vətən müharibəsi iştirakçısı olan əməkdaşları ilə görüş keçirilib. Tədbirdə müharibə iştirakçıları çıxış edərək döyüş yolları haqqında məlumat veriblər.

Bədii hissədə məktəblilərin ifasında şəhidlərimizə, Qələbəmizə həsr olunmuş şeirlər səsləndirilib. Beyləqan rayon Mədəniyyət Mərkəzinin "Gənclik" Xalq teatrının ifasında vətənpərvərlik mövzusunda "Məzuniyyət" tamaşası nümayiş olunub.

# "Lənkəran şəhərinin mədəni inkişaf strategiyası" Avropa İttifaqının qrantını qazanıb

*əvvəli səh. 1-də*



Avropa İttifaqının "EU4Culture" layihəsinin yerli əlaqələndiricisi Firuzə Bağır bildirdi ki, 2021-ci ilin may ayında elan edilən proqram Şərq Tərəfdaşlığı ölkələrində qeyri-paytaxt və regionlara xüsusi diqqət yetirməklə mədəniyyət və yaradıcı sektoru dəstəkləmək üçün Avropa İttifaqı tərəfindən maliyyələşdirilən dördillik layihədir. Layihənin ölkəmiz üzrə həyata keçirilməsində tərəfdaş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir: "Layihə çərçivəsində alınan qrant hesabına şəhərlər üçün mədəniyyət strategiyası hazırlanacaq. Gələcəkdə növbəti mərhələdən uğurla keçəcək şəhərlər üçün strategiyanın həyata keçirilməsi məqsədilə 300 min avro qrant ayrılması nəzərdə tutulub. Təqdim olunan müraciətlər qiymətləndirildikdən sonra ölkə üzrə Şəki, Xırdalan və Lənkəran şəhərləri öz mədəni inkişaf strategiyalarını hazırlamaq üçün 30 min avro qrant qazanıblar. Lənkəran şəhərindən layihə üçün nazirliyin Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) müraciət etmişdi".

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko çıxışında diqqətə çatdırdı ki, Aİ tərəfindən Höte İnstitutunun koordinasiyası ilə Şərq Tərəfdaşlığı ölkələrinin qeyri-paytaxt şəhər və qəsəbələrində mədəniyyət və yaradıcı sektoru dəstəkləmək məqsədilə 2021-ci ilin iyun ayında ümumi büdcəsi 40 milyon avro olan "EU4-Culture" qrant müsabiqəsi elan olunmuşdu: "Bu layihə Avropa İttifaqı tərəfindən hazırlanmış ən böyük mədəniyyət proqramlarından biridir. Lənkəran şəhərinin bu layihədə qalib olması bizləri sevindirir. Bu qrant vasitəsilə şəhərdə mədəni layihələri dəstəkləməklə orta sahibkarlığın da inkişafına təkan veriləcək. Mədəniyyət cəmiyyət üçün universal dəyərə malikdir. Avropa İttifaqının gündəmdə olan əsas prioritetlərindən biri də mədəniyyət sahəsidir və əməkdaşlığın mühüm mövzularındandır. Mədəniyyət sahəsinin inkişafına yönələn bu layihə insanların sosial-iqtisadi inkişafına da töhfədir".

Çıxışının sonunda layihənin tərəfdaşlarına təşəkkürünü bildirən Peter Mixalko layihənin simvolik kubokunu Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazova təqdim etdi.

Şahin Şahbazov "EU4Culture" layihəsi çərçivəsində elan edilən "Şərq Tərəfdaşlığı ölkələrində iqtisadi inkişaf və sosial rifah üçün mühərrik kimi mədəniyyət və yaradıcılığın təşviqi" qrant müsabiqəsində qalib olmalarından məmnunluğunu ifadə edərək dəstək olan təşkilatlara minnətdarlığını dilə gətirdi. Layihə çərçivəsində Lənkəran şəhərinin mədəni inkişaf strategiyasının hazırlandığını diqqətə çatdıran RMİ-nin rəisi layihənin uğurla reallaşacağına ümidvar olduğunu bildirdi.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, bu gün nazirliyin qarşısında duran məqsədlərdən biri də mədəniyyətin iqtisadiyyata çevrilməsidir: "Müxtəliflik mədəniyyətimizi rəngarəng edir. Ölkəmiz Avropa İttifaqı ilə bir sıra sahələrdə əməkdaşlıq edir. Bunlardan biri də mədəniyyət sahəsidir. Bizim bu sahədə böyük potensialımız var. Layihə qeyri-paytaxt şəhərlərə həsr olunub. Amma mən bu layihəni "hər şəhər bir paytaxtdır" – deyə adlandırardım. Məqsədimiz, ilk növbədə, mədəni dəyərlərimizə diqqət və qayğı ilə yanaşaraq onları təbliğ etməkdir. Lənkəran camaatı öz nemət və dəyərləri ilə fəxr edərək bu dəyərləri bu bölgənin inkişafına həsr etməklə töhfələr verə bilərlər. Bu gün dünya bərpaolunan enerji mənbələri haqqında danışır. Azərbaycan üçün mədəniyyət ən zəngin mənbədir. Biz bu mənbəni, mədəniyyəti iqtisadi inkişafa səfərbər etməliyik. Biz bu gün regional mədəniyyət idarələrini bölgələrdə yerləşən mədəniyyət müəssisələrinə idarəedici kimi deyil, bu sahənin inkişafına iqtisadi töhfələr verən koordinator kimi görürük. Layihəyə dəstək verən təşkilatlara təşəkkür edirəm".

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov əlamətdar hadisə münasibətilə bütün lənkəranlıları təbrik etdi. Bildirdi ki, bu nailiyyət Lənkəran üçün xüsusi önəm kəsb edir. Taleh Qaraşov şəhər İcra Hakimiyyətinin əsas tərəfdaşlığı ilə həyata keçiriləcək layihənin tarixi və mədəni irsinin təbliğinə xidmət edəcəyini və sosial inkişafına töhfə verəcəyini vurğuladı.

Beynəlxalq kulinariya çempionatında Lənkəranın ilk kulinariya komandasının 1-ci yeri qazandığını deyən icra başçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində "Cənub mirvarisi" olan Lənkəran şəhərinin UNESCO-nun "qastronomiya" tematikası üzrə 2021-ci ildə "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edildiyini bildirdi. Qeyd etdi ki, layihə çərçivəsində kitabxana, muzey, qalereya və regionda fəaliyyət göstərən digər mədəniyyət ocaqlarının fəaliyyətində Avropa modellərinin tətbiq edilməsi, eləcə də şəhərin mədəniyyət potensialının artırılması və regionda mədəni əməkdaşlığın inkişaf etdirilməsi önəmlidir.

Təqdimatda çıxış edən Fransanın ölkəmizdəki səfiri Zakari Qros, Avropa İttifaqının regional tədqiqatlar üzrə koordinatoru Marika Jabua Lənkəran şəhərinin sakinlərini təbrik edərək layihənin reallaşmasında uğurlar arzuladılar.

Qeyd edək ki, müsabiqəyə Azərbaycan üzrə səkkiz şəhər müraciət etmişdi: Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Şirvan, Xırdalan və Şəki. Lənkəran şəhəri üçün müraciət Mədəniyyət Nazirliyinin Lənkəran Regional Mədəniyyət İdarəsi vasitəsilə həyata keçirilib. Layihə üzrə strategiya iki il ərzində icra ediləcək. Maliyyə dəstəyi ilə yanaşı, layihə çərçivəsində qalib şəhərin mədəniyyət sahəsində potensialının gücləndirilməsinə yönəlmiş dəstək və təlim proqramları keçiriləcək.

**Lalə Azəri**

# Bölgələrin mədəni həyatı – müxtəlif səpkili tədbirlər



Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova Yevlax rayonunda bir sıra mədəniyyət müəssisələrinə baxış keçirib. Baxış zamanı idarə rəisi rayonun Aran – 2 qəsəbə Mədəniyyət evi, qəsəbə kitabxana filialı və Uşaq musiqi məktəbinin fəaliyyəti ilə tanış olub.

***

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov regional idarənin tabeliyində fəaliyyət göstərən Gəncə, Naftalan şəhər, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayonlarının uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə yeni təyin olunmuş pedaqoji kadrlarla görüş keçirib. İdarə rəisi yeni müəllimləri təbrik edib, uğurlar arzulayıb.

***

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Şuşa İli" ilə əlaqədar "Azərbaycanın milli sərvəti" adlı tədbir təşkil olunub. Tədbirdə Şuşanın işğaldan azad edilməsinə həsr olunan "Zəfərin zirvəsi" adlı sənədli film nümayiş olunub.

***

Şəki RMİ Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə uşaq və yeniyetmələr arasında "Vətənimin hər qarışı gözəldir" adlı rəsm müsabiqəsi keçirilib. Müsabiqə iştirakçılarının təbiət qoynunda çəkdikləri rəsm əsərləri muzeyin əməkdaşları tərəfindən qiymətləndirilib və qaliblər mükafatlandırılıb.



**Hazırladı: N.Məmmədli**

# "Şuşa İli"nə həsr olunmuş kitabların təqdimatı



Azərbaycan Yazıçılar Birliyində (AYB) Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) dəstəyi ilə nəşr edilən "Şuşa İli"nə həsr olunmuş "Zəfərin Amili" və "Yeni bir səhər" kitablarının təqdimatı keçirilib.

Giriş sözü ilə çıxış edən AYB-nin katibi, yazıçı-dramaturq Elçin Hüseynbəyli kitablar haqqında məlumat verib. Daha sonra hər iki nəşrin layihə rəhbəri və ön sözün müəllifi, Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı kitabların nəşrə hazırlanması prosesindən söz açıb, hər iki gənc müəllifə uğurlar arzulayıb.

Kitabların redaktoru, yazar, ədəbiyyatşünas Ramil Əhməd nəşrlərin ədəbiyyat adamları və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağını vurğulayıb. Daha sonra tədbirdə iştirak edən tanınmış şair, yazıçı Seyran Səxavət, Xəyal Rza və digərləri kitablar haqqında fikirlərini bölüşüblər.

"Zəfərin Amili" kitabı 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olan Amil Hüseynova həsr olunub. Qəhrəmanın həyat yoldaşı Xalisə xanımın müəllifi olduğu nəşr Amilin timsalında bütün şəhidlərin, müharibə iştirakçılarının və müharibə zamanında onları gözləyənlərin duyğularından, yaşantılarından bəhs edir.

"Yeni bir səhər" kitabı isə "Kür" ədəbi məclisinin üzvü, Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbinin müəllimi Aygün Bayramlının şeirlərindən ibarətdir. Müəllifin şeirləri "Zəfər yolu", "Səni gözləyirəm" və "Bu gün yeni bir səhər" başlıqları altında toplanıb.

# Cığır necə Zəfər yoluna çevrildi?

## Gəncədə Yunus Oğuzun tarixi romanı təqdim olunub



Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə jurnalist, yazıçı, tarixçi, türkoloq Yunus Oğuzun "Cığır" romanının təqdimatı keçirilib.

Tədbirdə Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Azər İbrahimov, AYB-nin Gəncə bölməsinin sədri Xəzangül Hüseynova və digər çıxış edənlər roman və onun mövzusu barədə fikirlərini bölüşüblər.

Yunus Oğuz bildirib ki, romanın əsas qayəsi Şuşaya cığırdan başlayan yolun Zəfər yoluna çevrilməsidir.

Tədbirin sonunda müəllif əsəri şəhid ailələri və qazilər üçün imzalayıb.

"Cığır" romanı Pənahəli xanın Şuşanı inşa etdirməsindən başlayaraq 8 noyabr 2020-ci il – Şuşanın işğaldan azad edilməsinədək olan dövrü əhatə edir. Əsərdə Şuşa şəhərinin tarixindən, 44 günlük Vətən müharibəsi zamanı və sonrası əldə olunan nailiyyətlərdən bəhs edilir.

# “Şuşaya salam” deyənlər

## 30 ölkədən 44 müəllif mədəniyyət paytaxtımız üçün şeir söyləyəcək

*əvvəli səh. 1-də*

AYB-nin Natəvan klubunda keçirilən təqdimatda qurumun katibi, şair-publisist Səlim Babullaoğlu layihə barədə məlumat verdi. Bildirdi ki, 44 gün davam edəcək layihə müddətində hər gün bir iştirakçı öz şeirini oxuyacaq və hər bir oxu “Space” telekanalında yayımlanacaq. Aksiyanın sonunda bütün iştirakçıların imzasıyla hazırlanmış memorial lövhə Şuşa şəhərinə hədiyyə ediləcək: “Şadam ki, bir çox xarici ölkələrdəki həmkarlarımız bu layihədə iştiraka razılıq verdilər. İnanmaq istəyirəm ki, nə vaxtsa onları Bakıya, Şuşaya dəvət edə biləcəyik. Onu da vurğulayım ki, layihədə Qarabağ, Şuşa haqqında bir neçə şeir olsa da, ümumilikdə iştirakçılar seçimlərində sərbəstdirlər. Sadəcə, onlar çıxışlarını ana dilimizdə “Salam, Şuşa” xitabı ilə başlayacaqlar. Hər biri öz ölkəsində kifayət qədər tanınan imza sahiblərinin bu təşəbbüsə qoşulması sevindirici haldır”.

Sonra söz layihənin ilk günündə çıxış edəcək AYB-nin sədri, Xalq yazıçısı Anara verildi. Layihə münasibətilə təşkilatçıları, eləcə də oxucu-tamaşaçıları təbrik edən yazıçı bu aksiyanı ədəbiyyat, söz sənəti, eləcə də Şuşamızın təbliğində əhəmiyyətli addım kimi dəyərləndirdi: “Torpaqlarımızın işğaldan azad olunması, bütün xalqımızın nümayəndələri kimi, biz yazı-pozu insanlarına da bir ayrı yaradıcılıq şövqü bağışladı. Biz xoşbəxtik ki, Qarabağın azad olunmasını gördük. Ümumiyyətlə, Qarabağ məsələsi başlayandan bəri Yazıçılar Birliyi hər zaman ictimai prosesləri, hadisələri yaradıcılıq müstəvisində ön planda saxlamağa çalışıb. Təbliğat işimiz bundan sonra da intensiv şəkildə davam edəcək və bacardıqca bunu daha geniş auditoriyaya çıxarmağa nail olacağıq. Bu fəaliyyətin vacib ünsürlərindən biri də “Şuşaya salam” layihəsidir”.

“Space” Müstəqil Teleradio Şirkətinin prezidenti Müşfiq Hətəmov da layihəyə qoşulmaqdan, onun təbliğatçısı olmaqdan məmnunluq ifadə etdi: “Otuz ildir ki, Qarabağ həqiqətləri barədə müxtəlif tribunalardan çıxışlar olub. Lakin bu gün haqqında danışdığımız layihənin haqq işimizin təbliğində xüsusi yeri olacaq. Layihənin önəmi həm də ondadır ki, dünya ziyalıları da bizim həqiqətləri dilə gətirir, onun birbaşa və dolayı tərənnümçüsünə çevrilirlər. Mən deyərdim ki, bu layihə həm də dövlətimizin uğurlu təbliğat addımıdır”.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli isə çıxışında layihənin dünya xalqlarında Qarabağla bağlı düzgün fikrin formalaşdırılmasına töhfəsinə diqqət çəkdi: “Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımız işğaldan azad olunduqdan sonra Mədəniyyət Nazirliyinin də üzərinə böyük məsuliyyət düşür. Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında nazirliyin iştirakı ilə bir çox işlər görülüb və bu sistemli proses getdikcə öz əhatə və təsir dairəsini də genişləndirməkdədir. “Şuşaya salam” layihəsi də həmin işlərdən biridir”.

AYB-nin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev də layihənin ədəbiyyat, söz sənəti üçün qalıcı olmasına diqqət çəkdi: “Ümumiyyətlə, tarixdə yazıçıların kitabları qalır. Vaxtilə Homer yazdığı müharibədən bizə heç nə qalmayıb, amma onun yazdığı mətni biz fakt kimi qəbul edir və hadisəni gözlərimiz önündə canlandırırıq. Bu mənada kifayət qədər nümunə sadalamaq olar. Bütün bunları nəzərə alaraq bizlər yaradıcı insanlar olaraq öz həqiqətlərimizi gələcək zamanın insanına çatdırmaq üçün yazmalı və kitaba çevirib, qorumalıyıq”.

AYB-nin sədr müavini Rəşad Məcid Şuşa və onun təbliğinə yönələn təşəbbüslərin önəmini vurğuladı. Bildirdi ki, mədəniyyət paytaxtımız Şuşanın adı ilə bağlı bütün layihələr ümumilikdə Azərbaycan həqiqətlərinin ifadə vasitəsidir:



“Bu mənada Şuşaya salam” gözəl və orijinal layihədir. Təşkilatçılara təşəkkürümü bildirirəm. Şuşa bizim müqəddəs, sevimli şəhərimizdir. Xüsusilə qeyd etmək istərdim ki, gənc olanda Şuşa haqqında ən gözəl sözləri Anar müəllimin yazılarından oxumuşam və elə layihəyə məhz onun söylədiyi şeirlə başlanması alqışlanası haldır”.

AYB-nin katibi İlqar Fəhmi isə layihəyə xarici müəlliflərin qoşulmasını təqdir etdi. Bunun həm də Qarabağ, Şuşa, Zəfər mövzusunda yarana biləcək yeni bədii nümunələrə stimul olduğunu dedi: “Bəzən yazıçı və şairlərə iradlar bildirirlər ki, onlar Qarabağ zəfəri haqqında yazıb-yaratmırlar. Halbuki hadisələr başlamazdan öncə də yazıçılarımız, şairlərimiz Qarabağ mövzusunda yazıb-yaradıblar və düşünürəm ki, zamanla buradakı imza və mövzu rəngarəngliyinə də nail olacağıq. Bu layihədə isə prosesə ölkəmizdən kənarda olan söz adamları da qoşulub”.

Qeyd edək ki, “Şuşaya salam” layihəsində Türkiyə, Macarıstan, İran, Danimarka, Ukrayna, İtaliya, Rumıniya, Yaponiya, Qazaxıstan, Pakistan, Gürcüstan, İsrail, Rusiya və s. ölkələrdən tanınmış imzalar qatılıblar. 27 sentyabrda başlayan layihənin son nümayişi 8 noyabr tarixində baş tutacaq.

**Həmidə**

# Gənc Tamaşaçılar Teatrı yeni mövsümü premyera ilə açıb





Binasındakı təmir işləri səbəbindən uzun zaman başqa səhnələrdən seyrçilərini salamlayan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı sentyabrın 24-də yubiley mövsümünü açıb. 95-ci mövsümün ilk uşaq tamaşası Pyer Külliforun (Pierre Culliford) “Şirinlər”i olub.

Tamaşadan öncə teatrın foyesində uşaqların əl işlərindən ibarət sərgi nümayiş etdirilib. Gənc Tamaşaçılar Teatrı, “AskerovArt” və “Crazy Art” studiyalarının birgə layihəsi olan sərgidə fərqli yaş kateqoriyalarından uşaqların əl işləri müxtəlif mövzuları əhatə edib.

“AskerovArt” studiyasının rəhbəri, Rəssamlar İttifaqının üzvü Rüfət Əsgərov və “Crazy Art”ın rəsm dərnəyinin müəllimi Ülkər Hümmətzadə sərgi barədə məlumat veriblər. Bildirilib ki, məqsəd uşaqların estetik zövqünün inkişaf etdirilməsi, istedadlı uşaqların aşkarlanması və təsviri sənətə olan meylinin artırılmasıdır. Qeyd olunub ki, hər iki studiyada uşaqların bacarıqlarını doğru istiqamətləndirən peşəkar pedaqoqlar çalışır.

Əl işlərinin nümayişi üçün yaradılan şəraitə görə teatrın rəhbərliyinə minnətdarlıq ifadə olunub. Sərgidə ümumilikdə 17 uşağın yağlı boya ilə çəkdiyi 20-dək rəsm nümayiş etdirilib.

Sonra “Şirinlər” tamaşası göstərilib. Quruluşçu rejissoru Elşad Rəhimzadə, tərtibatçı rəssamı Şahin Hüseynli, geyim üzrə rəssamı Yekaterina Xaritonova, musiqi tərtibatçısı İradə Muradova, rejissor assistenti Günay Qasımova olan səhnə əsərində mahnıların mətni Rəna Mirzəyevaya, plastik həll Ceyhun Dadaşova məxsusdur. Rolları Əməkdar artist Elnur Bəhramxan, aktyorlar Rəşad Səfərov, Zemfira Əbdülsəmədova, Günel Məmmədova, Nuriyyə Əliyeva, Qasımova Xəyalə, Könül Əbilova Anar Seyfullayev, Ramil Məmmədov və Xaliq Bəkirov ifa ediblər.

Qeyd edək ki, belçikalı rəssam və komiks-romanlar müəllifi P.Külliforun əsəri əsasında səhnələşdirilən tamaşa 2018-ci ildən teatrın repertuarındadır. Tamaşadan sonra sərgidə əl işləri nümayiş etdirilən uşaqlar aktyorlarla xatirə şəkli çəkdiriblər.

### Azərbaycan səhnəsində ilk “Qağayı”

Sentyabrın 24-də axşam teatrda görkəmli rus yazıçı-dramaturqu Anton Çexovun “Qağayı” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.

Tamaşadan öncə çıxış edən teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə yubiley mövsümündə qarşıda duran yaradıcılıq işləri, təqdim olunacaq tamaşalar haqqında danışıb.

Tamaşanın quruluşçu rejissoru, Əməkdar artist Nicat Kazımov hər kəsi salamlayaraq təmirdən sonra yeni səhnə texnikası ilə təchiz olunmuş teatrda bundan sonra daha gözəl tamaşaların ərsəyə gələcəyini deyib, səhnə əsəri haqqında məlumat verib. Bildirib ki, Azərbaycan teatr tarixində Çexovun bu əsərinə ilk dəfə müraciət olunur. Tamaşaçılar teatrın tanınmış aktyorları ilə yanaşı, gənc və istedadlı aktyorlarını da görəcəklər.

Çıxışlardan sonra “Qağayı” tamaşası nümayiş etdirilib. Rolları Əməkdar artistlər Kəmalə Hüseynova, Nicat Kazımov, Rasim Cəfərov, Şövqi Hüseynov, aktyorlar Səbinə Məmmədova, Bəhram Həsənov, Kərəm Hadizadə, Anar Seyfullayev, Sevinc Mehrəliyeva, Anar Səfiyev, Aygün Fətullayeva, Manaf Dadaşov, Nurlan Süleymanlı, Mikayıl Əliyev, Elgün Yəhyayev, Araz Pirimov, Ümman Budaqov, Mətləb Abuşov oynayırlar. Tamaşanın bədii tərtibatı Telman Şıxıyevə, xoreoqrafik həlli Nailə Məmmədzadədəyə, musiqi tərtibatı Şamxal Novruzluya, fəndlərin quruluşu İsa Əsədova məxsusdur.

# Üzeyir bəyin musiqi ənənələri yaşayır

## Beynəlxalq festival çərçivəsində Şuşa əsilli bəstəkarların əsərlərindən ibarət konsert



Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı bu il də maraqlı konsert, təqdimat və ustad dərsləri ilə yadda qaldı.

Sentyabrın 23-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) festival çərçivəsində Şuşa əsilli bəstəkarların əsərlərindən ibarət konsert keçirildi.

ABİ-nin Ü.Hacıbəyli adına konsert salonunda gerçəkləşən tədbiri ittifaqın sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti, professor Firəngiz Əlizadə açdı. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Firəngiz Əlizadə bugünkü tədbirin böyük məna kəsb etdiyini bildirdi: “Bu konsert hamıya göstərməlidir ki, Qarabağdan başlayan bizim klassik musiqi, bəstəkarlıq məktəbi bu gün də yaşayır, inkişaf edir. Təəssüflə deyim ki, biz hələ də Azərbaycan bəstəkarlıq məktəbinin imkanlarını dünyaya yetərincə göstərə bilməmişik. Bu yaxınlarda biz Rusiyanın Həştərxan şəhərində böyük bir musiqi tədbirinə qatılmışdıq. Bizim konsertdən sonra müxtəlif ölkələrdən gələn musiqiçilər bəstəkarlıq məktəbimiz haqqında çox dəyərli fikirlər söylədilər. Hətta Moskvadan gələn bəstəkar Məmməd Hüseynov milli bəstəkarlığımızın müsəlman dünyasının ən inkişaf etmiş bəstəkarlıq məktəblərindən olduğunu dedi. Bu fikir çox sadə səslənsə də, dərin məna kəsb edir, hər birimizdə qürur hissi doğurur. Bu gün dahi Üzeyir bəyin adını daşıyan milli bəstəkarlıq məktəbi üzərinə düşən vəzifəni canla-başla yerinə yetirir və gələcəkdə də belə olacaq”.

Sonra konsert proqramı təqdim olundu. İlk olaraq Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasından Gülçöhrənin ariyası, Əşrəf Abbasovun “Heyran olmuşam”, Rəna Qədimovanın klarnet və piano üçün (2 ifa) “Musical offering”, Kəmalə Əlizadənin – “Flying over Shusha” piano üçün, Tural Məmmədlinin kamança və piano üçün “Tənha yolçu”, Elnarə Dadaşovanın 2 piano və laqqutti üçün “Aşıqsayağı”, Soltan Hacıbəyovun 2 piano üçün “Uvertüra” və s. əsərlər səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

**S.Fərəcov**

# Macarıstan orkestri gənc solistləri müşayiət edib



Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində daha bir konsert sentyabrın 23-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilib.

Konsertdə Macarıstanın Mendelson Kamera Orkestrinin müşayiəti ilə gənc solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları Fəqan Həsənli (piano) və Əziz Pənah (qoboy) çıxış ediblər.

Proqramda Lüdviq Van Bethovenin “Simli kvartet N.11, op.95”, “Quartetto serioso”, Volfqanq Amadey Motsartın “Piano və orkestr üçün konsert A dur, K.414”, Bella Bartokun “Divertisment”, “Rumın xalq rəqsləri”, Üzeyir Hacıbəylinin “Arazbarı”, Aqşin Əlizadənin “Cəngi” əsərləri səsləndirilib.

Musiqiçilərin ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# Bakı Musiqi Akademiyasında Üzeyir Hacıbəyli festivalının konsertləri





Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bakı Musiqi Akademiyasında (BMA) da bir neçə konsert proqramı gerçəkləşib.

Sentyabrın 21-də Ü.Hacıbəyli adına BMA-nın böyük zalında keçirilən konsertdə bu ilin mayında Vyana şəhərində təşkil olunan “Odlar Yurdunun sədaları” Beynəlxalq Klassik Musiqi Müsabiqəsinin qalibləri – Aleksandr Maria Vaqner (Almaniya) və Qriqorius İoannu (Yunanıstan) çıxış ediblər.

Əvvəlcə BMA-nın prorektoru, professor Yeganə Axundova istedadlı pianoçular haqqında məlumat verib. Bildirilib ki, Aleksandr Maria Vaqner Virciniya Yaradıcılıq İncəsənət Mərkəzinin təqaüdçüsü, Qriqorius İoannu F.List Beynəlxalq Musiqi Müsabiqəsinin və Zalsburq şəhərində keçirilən “Mozarteum” Yay Akademiyasının laureatıdır.

A.M.Vaqner konsertdə V.A.Motsartın “No 11 A-dur sonata”, T.Quliyevin “Cəmilənin albomu”nu və həmçinin özünün bəstələdiyi “Miniatür über Mohn” əsərlərini ifa edib. Q.İoannou isə F.Listin “Mefisto-vals No 1”, F.Şopenin “Noktürn No 1 op.48”, C.Psatosun “Jettatura”, Ü.Hacıbəylinin “Sənsiz”, S.Prokofyevin “No 7 op.83 sonata”sını səsləndirib.

Sentyabrın 22-də BMA-nın böyük zalında “Odlar Yurdunun sədaları” müsabiqəsinin qalibləri olmuş daha iki istedadlı musiqiçi – Heli Kanq (Cənubi Koreya) və Anna Leyererdir (Avstriya) səhnəyə çıxıb.

Heli Kanqın ifasında dinləyicilər D.Skarlatti, V.A.Motsart, K.Şuman, F.Mendelson və M.Ravelin, Anna Leyererin ifasında isə R.Şedrin, A.Ginastera, A.Skryabin və F.Listin əsərlərini dinləyiblər.

Müxtəlif milli məktəb, üslub və tarixi dövrlərin bəstəkarlarının əsərlərindən ibarət rəngarəng proqram təqdim edən gənc musiqiçilərin incə təfsiri və virtuoz texnikası Bakı dinləyicilərinin yaddaşında hələ uzun müddət qalacaq.

***

Sentyabrın 24-də BMA-da “Baku Chamber Orchestra”nın konserti keçirilib. Konserti Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər dinləyiblər.

Dirijor Mirian Xuxunaişvilinin (Gürcüstan) rəhbərliyi altında “Baku Chamber Orchestra”nın müşayiəti ilə solist, istedadlı pianoçu Kristina Millerin (Rusiya/Almaniya) ifası dinləyicilərə böyük zövq bəxş edib.

Qeyd edək ki, K.Miller beynəlxalq müsabiqələr laureatı, Münxen Yeni Filarmoniyası, Vyana Kamera Orkestri, Amerika Orkestri və Litva Kamera Orkestrinin solistidir.

Konsert proqramında Ü.Hacıbəylinin “Arazbarı”, F.Şopenin “Piano və orkestr üçün konsert No.1 e moll, op.11”, B.Brittenin “Simple Symphony, op.4”, G.Kançelinin “Daneliada” əsərləri ifa olunub.

№71 (1944)
28 sentyabr 2022
www.medeniyyet.az

# Yeni mövsümə Qələbə soraqlı tamaşa ilə

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yeni mövsümü "Zəfər yolu" tamaşası ilə açıb. 44 günlük Vətən müharibəsinə həsr olunan səhnə əsəri ötən mövsümdə hazırlanıb.



Teatrın bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov yeni mövsümün açılışı münasibətilə sənətsevərləri təbrik edib. O, Vətən müharibəsində tarixi Qələbədən söz açaraq bildirib ki, tamaşa xalqımızın qazandığı tarixi Zəfərə ərməğandır.

Daha sonra səhnə əsəri təqdim olunub. Yeni yaradıcılıq işinin müəllifi və quruluşçu rejissoru Azər Paşa Nemətov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rejissoru Emil Əskərov, rejissor assistenti Nərmin Həsənovadır.

Tamaşada Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Hicran Nəsirova, Elxan Quliyev, Mətanət Atakişiyeva, Mirzə Ağabəyli, Elnar Qarayev, Anar Heybətov, Ayşad Məmmədov, Mətləb Abdullayev, Elşən Rüstəmov, Rəşad Bəxtiyarov, aktyorlar Elçin Əfəndi, Xədicə Novruzlu, Rada Nəsibova, İlahə Həsənova, İlyas Əhmədov, Afət Məmmədova, Aylin Həşimova, Elsevər Rəhimov, Corc Qafarov, Tural İbrahimov, Ramin Şıxəliyev, Elnur Qədirov, Cümşüd Zeynalov, Cavidan Novruz və Vüsal Mustafayev çıxış edirlər.

# Tarixi abidələrə baxış keçirilib



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Nardaran Tarix-Mədəniyyət Qoruğunun fəaliyyəti ilə tanış olub.

Qoruq əməkdaşları ilə keçirilən görüşdə fəaliyyətin müasir tələblər səviyyəsində qurulması, burada yerləşən abidələrlə bağlı təbliğat və təşviqat işləri barədə söhbət aparılıb.

Bildirilib ki, qoruq ərazisində qeydə alınmış 22 tarix-mədəniyyət abidəsi var. Onların hazırkı vəziyyəti ilə maraqlanan xidmət rəisi Nardaran qəsri, Xan bağının köşkü və karvansara ilə bağlı lazımi göstərişlər verib.

Azad Cəfərli həmçinin Xəzər rayonu Dübəndi qəsəbəsinin sahilboyu ərazisində yerləşən, üzərində qayaüstü təsvirlər olan Mağara abidəsinə baxış keçirib. E.ə. IV-I minilliyə aid olan "Mağara" abidəsinə kənar müdaxilələrin qarşısının alınması və qorunması ilə bağlı tapşırıq verilib.

# İstiqlal Muzeyində Anım Günü ilə bağlı tədbir

Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi və vətənpərvərliyin təbliği məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində mütəmadi olaraq tədbir-sərgilər, təqdimatlar təşkil olunur. Sərgilərdə muzeyin fondlarından Birinci və İkinci Qarabağ müharibəsi, 20 Yanvar, Xocalı faciələri, Aprel döyüşləri (2016) şəhidlərinə məxsus şəxsi əşyalar nümayiş olunur.



Sentyabrın 23-də İstiqlal Muzeyində Elm və Təhsil Nazirliyinin paytaxtdakı 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təşkilatçılığı ilə 27 Sentyabr – Anım Gününə həsr olunmuş "Qələbəyə gedən yol" adlı ədəbi-bədii tədbir keçirilib.

Tədbirdə mərkəzin teatr və musiqi dərnəklərinin istedadlı uşaqları vətənpərvərlik mövzusunda şeirlər söyləyib, mahnılar oxuyublar.

Xalqımız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini qəlbində yaşadacaq və onların qəhrəmanlığını heç vaxt unutmayacaq.

# "Sazın Ədaləti" diski işıq üzü görüb




Azərbaycan Aşıqlar Birliyinin (AAB) fəaliyyətində aşıq sənətinin inkişafında məxsusi yeri olan ustad sənətkarlara, onların irsinə hər zaman diqqət ayrılır. Necə deyərlər, heç nə unudulmur, heç kəs yaddan çıxmır. Ustad sənətkarlar haqqında kitablar hazırlanır, onların poetik yaradıcılıq nümunələri nəşr olunur, ifalarından ibarət audio və video disklər buraxılır.

Qurum tərəfindən ərsəyə gətirilmiş növbəti disk ustad aşıq, Əməkdar incəsənət xadimi Ədalət Nəsibova həsr olunub. AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, iki diskdən ibarət olan albomun birinci hissəsində ustad sənətkarın repertuarından bənzərsiz ifaları – "Yanıq Kərəmi", "Fəxri", "Aran gözəlləməsi", Hüseyni", "Məmmədbağırı", "Gəraylı", "Baş dubeyti", "Dilqəmi", "Naxçıvanı", "Baş sarıtel", "Misri", "Şahsevəni", "Ruhani", "Kərəm dubeyti" və "Müxəmməs" aşıq havaları, ikinci hissədə isə ustadın anadan olmasının 50 illik yubiley tədbirinin videolenti və aşıq Kərəm İncəliylə deyişməsi yer alıb.

Diski aşıq Altay Məmmədli hazırlayıb.

# "Hər iki oğlum Zəfər tariximizin bir parçasıdır"

## İman və Bəhrəm qardaşları eyni gündə şəhadətə yetiblər

Müasir hərb tariximizə və milli şöhrət salnaməmizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin ikinci ildönümü tamam oldu. Bu müharibə təkcə Azərbaycan dövlətinin qüdrətini göstərmədi, eyni zamanda Ordumuzla xalqımızın sarsılmaz birliyinin təcəssümünü ortaya qoydu.

44 günün sonunda qazanılan şanlı Zəfər, Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, şücaətləri sayəsində mümkün oldu. Ölümü gözə alan igidlər Vətənimizin müqəddəsliyini öz canları və qanları ilə bir daha sübuta yetirdilər. Bu yazıda haqq savaşımızda eyni gündə şəhid olan İman və Bəhrəm Məmmədzadə qardaşlarını yada salacağıq.

Ailənin böyük oğlu İman 1998-ci il sentyabrın 14-də, kiçik oğlu Bəhrəm isə 2000-ci il aprelin 18-də Lerik rayonunun Kəlvəz kəndində anadan olublar. Paytaxtın Xəzər rayonunun Binə qəsəbəsindəki S.Abbasov adına 117 nömrəli tam orta məktəbdə oxuyublar. Ali təhsillərini isə Rusiyada alıblar. İki qardaş uşaq yaşlarından idmana maraq göstərib. İman ağır atletika, Bəhrəm cüdo ilə məşğul olub. Hər ikisi dəfələrlə medal və diplomlara layiq görülüb. Bəhrəm iştirak etdiyi beynəlxalq cüdo yarışının finalında erməni rəqibini məğlub edərək birinci yeri qazanıb. Ali təhsillərini başa vurduqdan sonra 2020-ci ildə Azərbaycana qayıdan qardaşlar Vətən qarşısında borclarını ödəmək üçün hərbi xidmətə yollanıblar.




İmanla Bəhrəm Vətən müharibəsi zamanı bir çox döyüşdə iştirak ediblər. Qubadlı, Füzuli və Hadrut istiqamətlərində gedən döyüşlərdə çiyin-çiyinə vuruşaraq böyük şücaət göstərən İman və Bəhrəm 2020-ci il oktyabrın 27-də Xocavənd rayonunun Qırmızı bazar qəsəbəsi ətrafında şiddətli döyüş zamanı şəhid olublar.

Şəhid qardaşların atası Elman Məmmədov savaş boyu bir an belə bir-birindən ayrılmayan İman və Bəhrəmin son döyüşdə ölümün gözünə dik baxdıqlarını söyləyir: "Təhsilləri də bir, xidmətləri də bir, döyüş yolları da bir, şəhidlikləri də bir. Tək təsəllim odur ki, Vətən üçün canını fəda edən iki qəhrəman oğlum var. Onların ikisi də şərəfli ömür yaşadılar. İman və Bəhrəmin timsalında bütün şəhidlərlə fəxr edirəm. Mənim şəhid oğullarım Zəfər tariximizin bir parçasıdır...".

Elman Məmmədov döyüşlərin birində Bəhrəmin qolundan yaralansa da, qardaşı İmanı tək qoymayacağını söyləyərək xəstəxanaya getməkdən imtina etdiyini deyir: "Aralarında iki yaş fərqi olmasına baxmayaraq, hər kəs onların əkiz olduğunu düşünürdü. Oğullarım əkiz olmasalar da, bir-birləri ilə nəfəs alırdılar. Onları ölüm belə ayıra bilmədi...".

Övladlarının seçdiyi yoldan danışan E.Məmmədov bildirir ki, müstəqilliyimiz, suverenliyimiz uğrunda hər zaman şəhid verməyə hazır olmalıyıq. "Lazım olacaqsa, övladsız, amma bundan sonra bir qarış torpağımızı kimsəyə verməyəcəyik. Şəhidlərimiz üçün ağlamaq lazım deyil. Şəhidi təmtəraqla dəfn etmək lazımdır. Qoy bütün gənclər, yeni nəsillər bilsin ki, o kimdir. Şəhidlərin məclisini vayla keçirmək lazım deyil. Şəhid döyüşə vayla girməyib, hayla girib. Biz şəhidi vayla dəfn etməyək. Şəhidlər heç vaxt ölmür, ölməyəcək də. Onlar hər zaman bizlərin qəlbində yaşayacaq".

Şəhid qardaşların anası Hicran Məmmədova xatirəyə dönən rəsmlərdə və övladlarının şərəfinə salınmış xatirə guşəsində yadigar qalan əşyalara toxunaraq rahatlıq tapdığını deyib. Söyləyib ki, onlar ömürlərinin müəyyən qismini qürbətdə keçirsələr də, hər zaman Vətən sevgisi ilə yaşayıblar: "İman və Bəhrəm öz qəhrəmanlıqları ilə hər birimizin başını uca etdilər. Onlar tək mənim deyil, Azərbaycan xalqının övladlarıdır. Ölkəmizdə şəhidlərin analarına demək istəyirəm ki, başlarını dik tutsunlar, məğrur olsunlar. Ölkəmizdə şəhidlərimizə olan diqqət yüksək səviyyədədir. Mənim oğullarımın da şərəfinə qəsəbəmizdə xatirə guşəsi yaradılıb".

Hər iki qardaş 2020-ci il noyabrın 2-də Xəzər rayonunun Binə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümlərindən sonra "Vətən uğrunda" medalı, habelə Xocavənd, Cəbrayıl və Füzulinin azad olunmasına görə medalları ilə təltif ediliblər.

Şəhid qardaşların və bütün Vətən fədailərimizin ruhu şad olsun.

**Nurəddin Məmmədli**

# Şanlı Zəfər yolunun başlandığı gün

Müharibə dəyəndə ilk ağıla gələn dəhşət və vəhşətdir. Müharibə – insan qanı ilə suvarılan torpaqlarda amansız bir döyüş, dəhşətləri yerə-göyə sığmayan bir fəlakət, bir faciə.

27 sentyabr 2020-ci il. Azərbaycan tarixinə şəhid qanı ilə yazılan 44 günlük Vətən müharibəsinin başlandığı gün. Bu tarix bizi böyük Qələbəyə aparan yolun başlanğıcı oldu. Həmin gün Azərbaycan Ordusu 30 illik həsrətimizin sona çatacağını bizə bəyan etdi...

Qarabağımızın 30 il düşmən tapdağında qalması milli-mənəvi dəyərlərimizə heç bir kölgə salmadı. Biz xalq olaraq dözdük, səbirlə Ali Baş Komandanımızın qəbul edəcəyi qərarı gözlədik. Bu qərar müasir Azərbaycan tarixinin yeni parlaq səhifəsinin ilk addımları oldu.

Ermənistanın 30 il ərzində yaratdığı ordu, sadəcə, 44 gün tab gətirə bildi. Düşmən ordusu haqda özlərinin yaratdığı "yenilməzlik" mifi ortadan qalxdı. İşğal altındakı əzəli torpaqlarımız Azərbaycanın igid oğullarının qanı-canı bahasına qaytarıldı. Üç minə yaxın Vətən oğlu şəhidlik zirvəsinə ucaldı. Minlərlə igidimiz qazi ünvanı qazandı. Düşmən ordusundan fərqli olaraq, bir nəfər də olsun, əsgər və zabitimiz yağının qarşısından geri çəkilmədi. 44 gün yalnız irəli yürüdü. Çünki bir müqəddəs amal uğrunda yola çıxmışdıq.

Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. "Dəmir yumruq" əməliyyatı xalqın birlik fəlsəfəsinin təzahürü oldu. Bu birlik bundan sonra torpaqlarımıza göz dikmək istəyən başqaları üçün də ciddi bir xəbərdarlıqdır.



Vətən müharibəsinin son günü – 10 noyabr Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazıldı. Çünki düşmən o gecə kapitulyasiya aktını, məğlubiyyət sənədini imzalamağa məcbur oldu. 10 noyabr üçtərəfli bəyanatı ilə düşmən işğalı altında olan Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə belə atılmadan boşaldıldı.

Şanlı Zəfərimizin rəmzi olaraq 10 dekabr 2020-ci il tarixində Bakıda möhtəşəm Qələbə paradı isə müzəffər Azərbaycan Ordusunun gücünü və qürurunu bir daha dünyaya göstərmiş oldu. Şanlı Azərbaycan Ordusunun düşmən üzərində parlaq Qələbəsi sayəsində bu gün üçrəngli bayrağımız əzəli yurd yerlərimizdə qürurla dalğalanır.

Ötən günlərdə – sentyabrın 13-nə keçən gecə Ermənistan silahlı qüvvələri iki ölkənin sərhədində genişmiqyaslı təxribat törətdi. Keçmişdən dərs almayan mənfur düşmənin bu təxribatı da ona çox baha başa gəldi. Rəşadətli Ordumuz qısa zamanda və yüksək peşəkarlıqla düşmənə layiqli cavab verdi. Strateji yüksəklikləri ələ keçirdi, düşmənin yüzlərlə canlı qüvvəsini, hərbi texnika və avadanlıqlarını məhv etdi. Yenə də şəhidlərimiz oldu, igid əsgər və zabitlərimiz canlarını Vətən sərhədlərinin qorunması uğrunda fəda etdilər.

Bəli, bizim torpağımız müqəddəsdir. Ona görə müqəddəsdir ki, uzun əsrlər boyunca igid oğullarımızın canı-qanı bahasına qorunaraq bu günümüzə qədər bizləri qoynunda yaşadır. Bu torpağın hər qarışını göz bəbəyimiz kimi qorumaq isə yaşından, vəzifəsindən asılı olmayaraq hər bir vətəndaşımızın müqəddəs borcudur.

27 Sentyabr – Anım Günü ilə bağlı şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edir, Allahdan rəhmət diləyirik.

**Məryəm Əliyeva**
**Kürdəmir rayon MKS-nin baş biblioqrafı**

# Haqq-ədalət soraqçısı – Qəmkeş Allahverdi

## Erməni məkri üzündən texnikum təhsilini yarımçıq qoymuşdu

Kəlbəcər aşıq mühitinin yetirmələrindən söz düşəndə adı hörmətlə çəkilən sənətkarlar arasında şair-aşıq Qəmkeş Allahverdi də xatırlanır. Şöhrəti ölkələr dolaşan sənətkar Aşıq Ələsgər və Aşıq Şəmşirin sənət çeşməsindən nurlanaraq aşıq şeirimizin bir çox janrlarında al-əlvan əsərlər yaradıb.

Allahverdi Əli oğlu Allahverdiyev 1933-cü ildə Kəlbəcər rayonunun Şapılar kəndində dünyaya göz açıb. Açıqfikirli, geniş dünyagörüşlü Əli kişi söz-sənət qədri bilən, el-obanın savadlı şəxslərini dəyərləndirən insanlardan olub. O, övladlarının təlim-tərbiyəsinə də diqqət yetirib.

Allahverdi erkən çağlardan musiqiyə maraq göstərir. İncə və məlahətli səsi ilə tay-tuşları arasında diqqət çəkir. Kənddə hamı elə bilir ki, Allahverdi böyüyəndə aşıqlıq edəcək. Amma o, 1955-ci ildə kənd orta məktəbini müvəffəqiyyətlə başa vurduqdan sonra Şuşa şəhərinə gedir. Sənədlərini Pedaqoji Texnikumuna verir. Bir il sonra Moskva şəhərində keçirilən Azərbaycan incəsənəti ongünlüyünə qatılır. Sənət festivalının laureatı olan Allahverdi geri qayıdanda texnikumda heç də yaxşı qarşılanmır. Təhsil ocağının direktoru Armen Xaçaturyan azərbaycanlı tələbənin bu uğurunu həzm edə bilmir. Allahverdiyə hər addımbaşı nöqsan tutulur, töhmət verilir. Bütün bunlara dözümsüzlük göstərən Allahverdi erməni direktoru möhkəm döyür. Beləliklə, o, texnikumdan çıxarılır. Bir xalq məsələndə deyildiyi kimi "əli ətəyindən uzun" kəndə dönür. Əli kişi əhvalatla tanış olur. Oğluna səbirli olmağı tövsiyə edir. Sonra ətraf bölgələrin tanınmış aşıqları ilə əlaqə saxlayır. Allahverdi üçün yaxşı bir saz bağlatdırır. Əvvəlcə onu Aşıq Şəmşirin, sonra da Dədə Ələsgərin yetirməsi olan Aşıq Ağayarın yanına şeyirdliyə qoyur.

Ustad sənətkarların yanında sənətin sirlərinə vaqif olan Allahverdi elin toy şənliklərində yaxından iştirak edir. Gündəngünə söz-sənət meydanında püxtələşir. Məlahətli səsi, dəyərli sözləri ilə el şənliklərinin bəri-bəzəyi olur. Onu da qeyd edək ki, Aşıq Allahverdi həm də yaradıcı aşıq olub. "Qəmkeş təxəllüsü ilə xeyli qoşma, gəraylı, təcnis, müxəmməs və s. qələmə alıb. Şeirlərində insanları pis yoldan çəkindirməyə, gəlim-gedimli dünyaya bel bağlamamağa və haqq-ədalətli olmağa səsləyib. Elin sevimli aşıq-şairi "Yatıbdı" qoşmasında yazır:

*Bu gün yolum düşdü*
*qəbiristanlığa,*
*Orda zaman qışdı, dövran yatıbdı.*
*Sanki pıçıldaşdı hər məzar daşı:*
*- Şair, asta yeri, insan yatıbdı.*

*Pul işləmir orda, qiymətsizdir zər,*
*Sərdar hökm etmir, işləmir nökər.*
*Nə zəhmət var orda, nə alında tər.*
*Ağadan yuxarı çoban yatıbdı.*

*Dünya vəfasızdı, yolları çətin,*
*Onun şikarısan, çox olsan mətin,*
*Şaha baş əyməyən nazlı afətin,*
*Məzarda qoynunda xan yatıbdı.*

Ötən əsrin 60-70-ci illərində Qəmkeş Allahverdi sənətinin şöhrəti, səsi-sorağı Dağıstan, Gürcüstan və Orta Asiya respublikalarına gedib çatır. Təbriz şəhərindən də dəvətlər alır. Amma ona İrana getməyə icazə vermirlər...

Qəmkeş Allahverdi 1993-cü ildə erməni işğalı zamanı doğma yurd-yuvası Kəlbəcərdən didərgin düşüb Gəncə şəhərində məskunlaşır. Həmin ərəfədə



təbrizli aşıqlar Gəncəyə gəlib sənətkarı ziyarət edirlər.

Sənətkar Aşıqlar Birliyinin üzvü kimi aşıqların III, IV, V qurultaylarında iştirak edib. Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evində fəaliyyət göstərən aşıqlar ansamblının bədii rəhbəri olub. Yaradıcılığı və ictimai fəaliyyəti yüksək qiymətləndirilən sənətkar "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Qəmkeş Allahverdi 2002-ci ildə vəfat edib. 2008-ci ildə filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədlinin ön sözü ilə "Şair-aşıq Allahverdi Qəmkeş xatirələrdə" kitabı çapdan çıxıb.

**Savalan Fərəcov**

# Səttar Bəhlulzadənin Şuşa sevgisi

Zamanında çoxları Moskvada aldığı ali təhsilin nəticəsi olaraq Babək üsyanına həsr edilmiş iki əsər yaradan Səttar Bəhlulzadənin (1909-1974) gələcəkdə tarixi mövzuda digər tablolar müəllifi olacağını düşünürdü.

Onun 40-cı illərdə yaratdığı "Babək üsyanı" və "Bəzz qalasının müdafiəsi", sonra işlədiyi "Qubalı Fətəli xanın portreti" və "Xəttat Mirəli Təbrizi" əsərləri də belə düşünməyə əsas verirdi. Amma özünün 1972-ci ildə respublika Dövlət mükafatına layiq görülməsindən sonra Azərbaycan Radiosuna verdiyi müsahibədə dediyi kimi, bu ümidləri "doğrultmadı" və tarixi janrda tablolar çəkən rəssam əvəzinə mənzərəçi oldu. Bunun düzgün seçim olduğunu isə zaman çox tezliklə təsdiqlədi...

Heç şübhəsiz, bunun başlıca səbəbi Bakıda dünyaya göz açmış rəssamın Azərbaycan təbiəti ilə çox yaxından tanışlığı və ona ürəkdən bağlanması olmuşdur. Başqa sözlə desək, Azərbaycan torpağını Məcnun məhəbbəti ilə sevən rəssam bütün ömrü boyu onu qarış-qarış gəzmiş, bu torpağın varlığına, qənirsizliyinə qəlbən inanmış, hər daşına, hər ağacına dərindən bələd olmuş və irili-xırdalı tablolarında onu böyük məhəbbətlə tərənnüm etmişdir. Əvvəlcə Bakı və Abşeron təbiətinə bədii münasibət göstərən rəssam daha sonra bağlar diyarı Qubanın, bunun da ardınca isə Şuşanın əsrarəngiz mənzərəsinə vurğunluğunu çoxsaylı əsərlərində əks etdirmişdir.

Rəssamın "Qafqazın konservatoriyası" kimi məşhurlaşan şəhərə gəlişi 1956-cı ilə təsadüf etmişdir. Onun bədii irsinin tədqiqi göstərir ki, şəhər və onun ətrafı ilə yaxından tanış olan rəssam burada xeyli təsvir materialı toplamış, etüdlər çəkmişdir. Bu kiçikölçülü etüdlərin arasında "Dağ yolu" (25x35sm), "Vaqifin qəbri yanında" (25x34sm) və digərlərinin adını çəkmək olar. Elə həmin dövrdə rəssam iriölçülü "Çaxmaq meşəsi" (70x140sm) əsərini də yaratmışdır. Araşdırmalar göstərir ki, rəssam özünün Şuşa təəssüratını daha çox qrafik vasitələrlə rəsm albomuna köçürmüş, Bakıya qayıtdıqdan sonra həmin eskizlər əsasında müxtəlifölçülü tablolar ərsəyə gətirmişdir. Hazırda onların bir qismi muzeylərdə, qalanları isə şəxsi kolleksiyalarda saxlanılır. Onu da əlavə edək ki, Səttarın Şuşa sevgisi ötəri olmayıb, bütün yaradıcılığı boyu davam etmişdir. Rəssamın Şuşa ünvanlı iriölçülü tablolarının 1956-cı ildən başlayaraq sonrakı müxtəlif illərdə yaradılması da dediklərimizi təsdiqləyir.





Bu əsərlərin ən məşhuru, şübhəsiz ki, hazırda Ü.Hacıbəylinin Bakıdakı ev-muzeyində nümayiş etdirilən "Cıdır düzü" (1956) tablosudur. Kətan üzərində yağlı boya ilə çəkilmiş üfüqi formatlı lövhədə (106x221sm) Şuşa və onu əhatələyən təbiət gözəlliyi əks olunmuşdur. Günün qürub çağında Qarabağ təbiətinin füsunkar mənzərəsinə göz qoyan rəssam məkanın qəribəliyi ilə gözoxşayan landşaftına kifayət qədər cəlbedici görkəm verməyi bacarmışdır. Ağaclarla əhatələnmiş şəhər evlərindən Cıdır düzünə qədər uzanan çəmənliklə yanaşı, Daşaltı çayı və onun üzərindən ucalan sərt yarğanlı təpələrdən uzaqdan görünən dağlar silsiləsinin birlikdə kompozisiyaya ovsunlayıcı ovqat bəxş etməsi adi gözlə belə görünəndir. Rəng qatını təşkil edən bədii ayrıntıların işıq-kölgə təzadı ilə cəlbedici mənəvi qaynağa çevrilməsini isə, heç şübhəsiz, Səttar Bəhlulzadənin yüksək sənətkarlığının ifadəsi saymaq olar. Tablonun bədii həllində nə qədər realist-gerçəkçi sənətin bədii prinsiplərinə tapınmaq duyulsa da, məkanın daha gözəl və cəlbedici təqdimatında müəllifin romantizm estetikasından istifadəsi qabarıqdır...

Bu əsərin ictimailəşməsindən sonra onun vurğunlarının sayı durmadan artmışdır. Odur ki, bir il sonra rəssam yenidən bu motivə qayıtmalı olmuşdur. Bu dəfə onun kiçik variantını (35x50sm) məşhur diplomatımız Ramiz Abutalıbovun (1937-2022) xahişi ilə işləmişdir. Elə həmin ildə Səttar Bəhlulzadə ölçüsünə görə əsərin ilk variantına yaxın olan "Cıdır düzünün görünüşü" (105x225sm) tablosunu da yaratmışdır. Həmin əsər hazırda şəxsi kolleksiyada saxlanılır.

Bu əsərlərin daşıdığı estetik yükü dəyərləndirməli olsaq, rəssamın ilk dəfə ayaq basdığı Qarabağ torpağının heyrətamiz təbiətinin gözəlliyini bütün zənginliyi ilə duyduğunu hiss etmək olar. Səttarın dünyaya həmişə bambaşqa görünən baxışının bu tablolarda poetik-romantik tutum almasına şahidlik etmək mümkündür. Doğrudan da, Şuşa təbiətinin təsvirlərlərindəki qeyri-adi baxış nöqtələri, sayagəlməz rəng çalarlarının ecazkarlığı insanı üşəndirir, onu heyrətə gətirir. Zirvəsi zər-zibalı, çiçəyi çırtlamış budaqları, titrəşən yamacları, nur qətrəli gur şəlalələri, min cilvəli, yaxası naxışlamış qönçələri görəndə qeyri-adi öz-özünə "Belə necə görmək və duymaq olar? Bu ki lap əfsanədir, nağıldır!" sözlərini pıçıldayırsan. Rəssam əsərlərində rənglərdən elə bir qövsi-quzeh yaratmışdır ki, burada təbiətin ağrı işığından "boylanan" sevincini də, kədərdən azad olmaq istəyini də, kamillik həsrətini də, onun qeyri-adi duyğular aşılayan nurunu da görmək mümkündür. Ona görə də görünənlər rənglərin mexaniki kətana ötürülməsi yox, ilhamlı bir ruhun özünüifadəsi kimi qəbul olunur...



1957-ci ildə rəssam topladığı təsvir materiallarının əsasında Şuşa təbiətinə həsr olunmuş daha bir neçə mənzərə yaratmışdır. Bunlar "Şuşa ətrafında" (78x191sm), "Şuşa. Ağaclar" (40x50sm), "Şuşa yaxınlığında (35x50sm), "Yuxarı Daşaltı" (70x140sm), "Dağları duman bürüyəndə" (56x170sm) və "Qarabağ mənzərəsi" (50x70sm) əsərləridir. Yeri gəlmişkən, qeyd edək ki, "Şuşa yaxınlığında" və "Qarabağ mənzərəsi" əsərlərini müəllif sənətin pərəstişkarı olan məşhur dövlət xadimi və dramaturq Şıxəli Qurbanova hədiyyə etmişdi...

Əlavə edək ki, Səttar Bəhlulzadə 1958-ci ildə "Mənzərə. Şuşa ətrafı" (80x180sm), 1959-cu ildə isə "Qarabağda" (120x310sm) tablolarını ərsəyə gətirmişdir. Hər iki iş hazırda şəxsi kolleksiyada saxlanılır.

Rəssamın Şuşa ünvanlı əsərlərinin yaradılması onun ilk yaradıcılıq dövrünə təsadüf etdiyindən, onların estetikasında daha çox realizm bədii prinsiplərinə istinadlar duyulmaqdaır. Amma bu lövhələrdə Səttar Bəhlulzadə "realizmi" sənətkar təxəyyülünün sərbəstliyi ilə yanaşı, həm də onun nəhayətsizliyini nümayiş etdirmək üçün vasitə olmuşdur. Özünü artıq mənzərə janrında təsdiqləmək yolunu seçən rəssamın hələlik o vaxt üçün çox qısa görünən yaradıcılıq axtarışlarında belə gerçəklikdəki poetikanı romantik ruha kökləmək yolunu seçdiyi hiss olunmaqdadır. Belə ki, təqdim olunanlar həm zərif təbiət motivlərinin özüdür, həm də obrazlaşmış biçimdə yenidir. Bu yeniliyi onun sonrakı dövrlərdə yaradılan hər bir əsərində görmək mümkün olacaq, desək, həqiqəti ifadə etmiş olarıq...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

# Jurnalistlərin VIII qurultayında Mətbuat Şurasının yeni sədri seçilib

## Rəşad Məcid: "Azərbaycan mediasının saflaşması uğrunda mübarizə aparacağıq..."

Sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan jurnalistlərinin VIII qurultayı keçirilib.

Qurultayda əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra şəhidlərin, həmçinin 2021-ci ildə peşə fəaliyyətini yerinə yetirərkən Kəlbəcər rayonunda minanın partlaması nəticəsində həlak olan Məhərrəm İbrahimov (AZƏRTAC) və Sirac Abışovun, eləcə də əvvəlki qurultaydan ötən dövrdə dünyasını dəyişmiş digər jurnalistlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mətbuat Şurası (MŞ) sədrinin müavini Umud Rəhimoğlu jurnalistlərin VIII qurultayının iştirakçılarının Prezident İlham Əliyevə müraciətini oxuyub.

MŞ sədri Əflatun Amaşov Azərbaycan jurnalistlərinin VII qurultayından ötən dövrdə görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. O, məruzəsinin sonunda 2003-cü ildə yaranan Mətbuat Şurasına 19 illik fəaliyyətindən də söz açaraq, növbəti dəfə sədrliyə namizəd olmayacağını bildirib və qurumun yeni seçiləcək rəhbərliyinə uğurlar arzulayıb.

Sonra MŞ Nəzarət-Təftiş Komissiyasının sədri Tahir Aydınoğlunun hesabatı dinlənilib.

Məruzələr ətrafında çıxışlarda qurumun fəaliyyəti ilə bağlı fikirlər bildirilib, qarşıdakı dövrdə həyata keçiriləcək işlərlə bağlı bir sıra təkliflər irəli sürülüb.

MŞ sədrinin müavini Müşfiq Ələsgərli qurumun Nizamnaməsinə təklif olunan əlavə və dəyişikliklər barədə məlumat verib. Səsvermə nəticəsində müvafiq əlavə və dəyişikliklər qəbul edilib, o cümlədən "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları" "Azərbaycan Jurnalistlərinin Etik Kodeksi" olaraq dəyişdirilib.



Qurultayda Mətbuat Şurası İdarə Heyətinin 23 nəfərdən ibarət yeni heyətinin müəyyənləşdirilməsi ilə bağlı seçki keçirilib. Gizli səsvermənin (bülleten-anket) nəticələrinə əsasən, ən çox səs toplayan 14 jurnalist və 9 ictimaiyyət nümayəndəsi İdarə Heyətinin üzvü seçilib: Rəşad Məcid, Vüqar Rəhimzadə, Vüsalə Mahirqızı, Hacıbəy Heydərli, Azər Həsrət, Aydın Quliyev, Elçin Mirzəbəyli, Akif Aşırlı, Səadət Məmmədova, Niyaz Niftiyev, Elşad Eyvazlı, Aqil Ələsgər, Rauf Arifoğlu, Alqış Musayev (jurnalistlər üçün kvota üzrə); Əflatun Amaşov, Müşfiq Ələsgərli, Umud Mirzəyev, Yadigar Məmmədli, Bəhruz Məmmədzadə, Qulu Məhərrəmli, Vüqar Ziferoğlu, Ceyhun Musaoğlu, Fərid Pərdəşünas (ictimaiyyət nümayəndələri üçün kvota üzrə).

Qeyd edək ki, MŞ İdarə Heyətinin 23 üzvündən 10 nəfər yeni seçilib, 13 nəfər isə bundan əvvəlki heyətdə də yer almışdı.

Həmçinin açıq səsvermə ilə 5 nəfərdən ibarət MŞ Nəzarət-Təftiş Komissiyası seçilib: Tahir Aydınoğlu, Elşən Əliyev, Ələsgər Süleymanov, Nadir İsmayılov, Rey Kərimoğlu.

Daha sonra İdarə Heyəti üzvlərinin açıq səsverməsi ilə "525-ci qəzet"in baş redaktoru, şair-publisist, Əməkdar mədəniyyət işçisi Rəşad Məcid Mətbuat Şurasının yeni sədri seçilib.

Qurultayın qətnaməsi səsə qoyularaq qəbul olunub. Bununla da Azərbaycan jurnalistlərinin VIII qurultayı başa çatıb.

Qurultayda Mətbuat Şurasına üzv 163 təşkilatdan 205 nümayəndə iştirak edib.

***

Azərbaycan Mətbuat Şurası indiyədək səmərəli fəaliyyət göstərib. İndi informasiya məkanı genişlənib. Mətbuat Şurası İdarə Heyətinə seçilən yeni üzvlərlə birlikdə Azərbaycan mediasının saflaşması uğrunda mübarizə aparacağıq.

Mətbuat Şurasının yeni sədri Rəşad Məcid bu fikirləri jurnalistlərə açıqlamasında deyib.

MŞ sədri vurğulayıb ki, jurnalist fəaliyyətinin və peşə etikasının pozulmadığı hallarda jurnalistlərin hüquqları qanunla qorunacaq.

***

Onu da qeyd edək ki, qurultaydan bir gün sonra MŞ İdarə Heyətinin tərkibində dəyişiklik olub. Niyaz Niftiyev ərizə ilə sədr Rəşad Məcidə müraciət edərək işlərinin çox olması səbəbindən heyətin işində iştirak edə bilməyəcəyini bildirib və üzvlükdən imtina edib.

MŞ İdarə Heyəti müraciəti müzakirə edərək qərar qəbul edib. Qurultayda namizədlər arasında N.Niftiyevdən 1 səs az toplamış Yeganə Hacıyeva (politoloq) MŞ İdarə Heyətinə daxil edilib.

## Xatirə təqvimi — 28-30 sentyabr

### Azərbaycan

**28 sentyabr 1953** – Xalq artisti Əjdər Qüdrət oğlu Həmidov (1953 – 24.11.2020) Şabran rayonunda anadan olub. Sumqayıt teatrında çalışıb, 1990-cı ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**28 sentyabr 1978** – Görkəmli yazıçı, ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Mir Cəlal Əli oğlu Paşayev (26.4.1908 – 1978) vəfat edib. "Bir gəncin manifesti", "Dirilən adam", "Yaşıdlarım" romanlarının, povest və hekayələrin, "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasının müəllifidir.

**28 sentyabr 1985** – Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Cavan (Hüseyn Mikayıl oğlu Əliyev; 1916-1985) vəfat edib. Cənubi Azərbaycanın Qaradağ mahalında doğulub, 1946-cı ildən Goranboy rayonunda yaşayıb.

**29 sentyabr 1833** – Şair, rəssam, xəttat, musiqişünas, təzkirəçi Mir Möhsün Nəvvab (1833-1918) Şuşada doğulub. Qarabağda doğulmuş 100-dən artıq şairin həyatı və yaradıcılığı haqqında məlumatların yer aldığı "Təzkireyi-Nəvvab" toplusunu tərtib edib. Şuşada "Məclisi-fəramuşan" ədəbi məclisini təşkil edib.

**29 sentyabr 1924** – Bakıda I Ümumazərbaycan diyarşünaslıq qurultayı keçirilib.

**29 sentyabr 1953** – Əməkdar rəssam Rəşid İbrahim oğlu Həsənov (Rəşid Şərif; 1953 – 26.3.2020) Bakının Mərdəkan qəsəbəsində anadan olub. Karikaturaçı və teatr rəssamı kimi tanınıb, Dövlət Yuğ Teatrında çalışıb.

**29 sentyabr 1962** – Əməkdar artist, tanınmış diktor Bəxtiyar Nadir oğlu Şərifzadə (1962 – 24.6.2016) Qax rayonunda anadan olub.

**29 sentyabr 2003** – Ədəbiyyatşünas alim, şair-publisist Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 25.12.1934 – 2003) vəfat edib.

**30 sentyabr 1891** – Xalq artisti Aleksey Lvoviç Qripiç (1891-1983) anadan olub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1936-1948) quruluşçu rejissor və baş rejissor işləyib.

**30 sentyabr 1920** – Əməkdar incəsənət xadimi, rejissor Lətif Bəşir oğlu Səfərov (1920 – 9.12.1963) Şuşada anadan olub. "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının ilk sədri olub.

**30 sentyabr 1933** – Bəstəkar, truba ifaçısı, dirijor, pedaqoq Əziz Əkbər oğlu Əzizli (1933-2005) Bakıda anadan olub.

**30 sentyabr 1945** – Şair Vaqif İbrahim (Vaqif Əliyar oğlu İbrahimov; 1945-1983) Şəkidə doğulub. Kitabları: "Bu torpaqda doğulanlar", "Dünyanın keşiyində", "Vaxtla üz-üzə" və s.

**30 sentyabr 1950** – Bəstəkar, Əməkdar incəsənət xadimi Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyli (17.4.1884 – 1950) vəfat edib. "Aşıq Qərib" operası, "Əlli yaşında cavan" musiqili komediyasının müəllifidir.

**30 sentyabr 1969** – Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Sumqayıt Dövlət Gənclər Dram Teatrına görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin adı verilib.

**30 sentyabr 1988** – Rəssam, Əməkdar incəsənət xadimi Əbdülxalıq (Əbdülxalıq Əbdüləli oğlu Rzaquliyev; 5.5.1920 – 1988) vəfat edib.

**30 sentyabr 1991** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (23.10.1953 – 1991) dünyasını dəyişib.

**30 sentyabr 2009** – Azərbaycan aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu barədə qərar UNESCO Hökumətlərarası Komitəsinin Abu-Dabidə (Birləşmiş Ərəb Əmirlikləri) keçirilən 4-cü sessiyasında qəbul edilib.

**30 sentyabr 2012** – Gəncə şəhərində Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə beynəlxalq konfrans keçirilib. Konfransda 20-dən çox ölkədən nümayəndələr iştirak edib. Konfrans çərçivəsində keçirilən xüsusi toplantıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təsis edilib.

### Dünya

**28 sentyabr 1573** – İtalyan rəssamı Mikelancelo Karavaco (Michelangelo Merisi da Caravaggio; 1573 – 18.7.1610) anadan olub. Məşhur əsərləri: "Yudif və Olofern", "Tövbə edən Mariya Maqdalina", "Müqəddəs Pyotrun əzabkeşliyi" və s.

**28 sentyabr 1803** – Fransız yazıçısı Prosiper Merime (Prosper Merimee; 1803–1870) anadan olub. Yazıçının "Karmen" novellası əsasında bəstəkar Jorj Bize opera yazıb, "Matteo Falkone" novellası əsasında Azərbaycan rejissoru Tofiq Tağızadə eyniadlı film (1960) çəkib.

**28 sentyabr 1915** – Məşhur rus teatr rejissoru, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı Georgi Aleksandroviç Tovstonoqov (1915 – 23.5.1989) Tbilisidə anadan olub.

**28 sentyabr 1924** – İtalyan aktyoru Marçello Mastroyani (Marcello Vincenzo Domenico Mastroianni; 1924 – 19.12.1996) anadan olub. Filmləri: "Şirin həyat", "İtalyansayağı boşanma", "Səkkiz yarım" və s.

**29 sentyabr 1547** – İspan yazıçısı Migel de Servantes (Miguel de Cervantes y Saavedra; 1547 - 23.4.1616) anadan olub. "Don Kixot" romanı ilə şöhrət qazanıb. Digər əsərləri: "Parnasa səyahət" (poema), "Persiles və Sigizmunda" (roman).

**29 sentyabr 1810** – İngilis yazıçısı Elizabet Qaksell (Elizabeth Cleghorn Gaskell; 1810-1865) anadan olub.

**29 sentyabr 1904** – Rus yazıçısı Nikolay Alekseyeviç Ostrovski (1904-1936) anadan olub. Əsərləri: "Polad necə bərkidi?", "Fırtınadan doğulmuşlar".

**29 sentyabr 1912** – İtalyan kinorejissoru Mikelancelo Antonioni (Michelangelo Antonioni; 1912 - 30.7.2007) anadan olub. Avropanın əsas kinofestivallarının qalibi, fəxri "Oskar" mükafatçısıdır.

**29 sentyabr 1913** – Amerika kinorejissoru Stenli Kramer (Stanley Earl Kramer; 1913 - 19.2.2001) anadan olub. Filmləri: "Nürnberq prosesi", "Bu çılğın, çılğın, çılğın dünya", "Domino prinsipi" və s.

**30 sentyabr 1715** – Fransız filosofu Etyen de Kondilyak (Etienne Bonnot de Condillac; 1715-1780) anadan olub.

**30 sentyabr 1917** – Məşhur teatr rejissoru, Rusiyanın Xalq artisti, pedaqoq Yuri Lyubimov (1917-2014) anadan olub. Uzun illər Taqanka Teatrının rəhbəri olub.

**Hazırladı: Vüqar Orxan**

# Şəki kəndlərinə aid folklor nümunələri toplanıb

AMEA-nın Şəki Regional Elmi Mərkəzi Folklorşünaslıq və el sənətləri şöbəsinin əməkdaşları İradə Yusifova, Tural Adışirinov və Adışirin Xəlilov Şəkinin Qoxmuq kəndində ekspedisiyada olublar.

AMEA-dan bildirilib ki, ekspedisiya üzvləri Qoxmuq kənd icra nümayəndəliyinin sədri İbrahim İsayev və kənd Folklor evinin müdiri Fazil Məmmədovla görüşüblər. Kənd ağsaqqalı, folklor bilicisi kimi tanınan Bahadur Seyidovla söhbət aparılıb. Həmçinin Qoxmuq kənd sakini olmuş Xalq şairi Bəxtiyar Vahabzadənin Ev-Muzeyinin direktoru Elşən Zəkəriyyəbəyli ilə görüş keçirilib. Görüşlərdə Qoxmuq kəndinin tarixi, əhalisinin adət-ənənələri, folklor örnəkləri haqqında maraqlı məlumatlar əldə edilib.

Mərkəz əməkdaşlarının Kiçik Dəhnə kəndinin icra nümayəndəsi Ayaz Əliyev və kənd Diyarşünaslıq klubunun direktoru Sadiq Hüseynov, eləcə də kəndin ağsaqqal ziyalıları Hamil Süleymanov və Namizəd Xalidoğlu ilə aparılan söhbət zamanı dəyərli folklor nümunələri əldə edilib.

Böyük Dəhnə kəndinin 83 yaşlı sakini Oktyabr Rəşidovla da görüş keçirilib, el ağsaqqalı bildiyi folklor örnəklərini əməkdaşlarla bölüşüb.

Ekspedisiya işlərinin ilin sonunadək davam etdirilməsi nəzərdə tutulur.

# Helsinkidə Rauf Hacıyevin 100 illik yubileyi keçirilib

Finlandiya paytaxtında Azərbaycanın görkəmli bəstəkarı, SSRİ Xalq artisti Rauf Hacıyevin (1922-1995) 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Helsinkidə səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Elşad Əliyev, ölkəmizin İsveç və eyni zamanda Finlandiyadakı səfirliyinin müşaviri Cavanşir Məmmədov, Türkiyənin Finlandiyadakı səfiri Deniz Çakar və bu ölkədə yaşayan azərbaycanlı və türk diasporlarının fəalları, yerli ictimaiyyət nümayəndələri iştirak ediblər.

Finlandiya Teatr Muzeyində baş tutan tədbirdə əvvəlcə Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi, Azər-Türk Gənclər Təşkilatının rəhbəri Ülviyyə Cabbarova çıxış edərək bu il 100 illiyi Azərbaycanda dövlət səviyyəsində qeyd edilən məşhur bəstəkarın həyat və yaradıcılığı, musiqi sənətimizə töhfələri haqqında danışıb.




Rauf Hacıyevin Helsinkidə yaşayan qızı Natella xanım atasının xatirəsinə göstərilən diqqətə və belə bir tədbirin təşkil olunmasına verdiyi dəstəyə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə edib, bəstəkarın sənət yolundan söz açıb.

Sonra Rauf Hacıyevin həyat və yaradıcılığından bəhs edən film nümayiş olunub.

Tədbirin bədii hissəsində tanınmış azərbaycanlı pianoçu Abuzər Manafzadə, onun həyat yoldaşı, vokalçı Karen Danger-Manafzadə, azərbaycanlı vokalçı Orxan Cəlilovun ifasında Rauf Hacıyevin mahnıları səslənib.

Qeyd edək ki, tədbirlə yanaşı Finlandiya Teatr Muzeyində qonaqlara Azərbaycanın qədim şəhəri olan İrəvanın tarixi Təpəbaşı məhəlləsi haqqında fotosərgi də nümayiş olunub.

# Mədəni ənənələr və xalqların milli mətbəxi

## Daşkənddəki festivalda ölkəmiz də təmsil olunub



Özbəkistanın paytaxtındakı Mirzo Uluqbek adına Mərkəzi parkda bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklər və mədəniyyət mərkəzlərinin iştirakı ilə XVIII "Mədəni ənənələr və xalqların milli mətbəxi" festivalı keçirilib.

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də ənənəvi festivalda iştirak edib.

Ölkəmiz üçün ayrılmış stenddə iştirakçılar Azərbaycan milli mətbəxinin ləziz nümunələrinə qonaq ediliblər. Plov, dolma, çığırtma, kükü, qutablar, dovğa, habelə milli şirniyyatlarımız olan şəkərbura, paxlava böyük maraq doğurub. Guşədə qonaqlara Azərbaycan çayı da təqdim olunub.

Milli yemək və şirniyyatları AMM-in sifarişi ilə Daşkənddəki "Yemeli" restoranının mütəxəssisləri hazırlayıblar.

Festival çərçivəsində iştirakçı ölkələrin tətbiqi sənət əşyaları, suvenirlər, mətbəx mövzusunda nəşrlər də nümayiş olunub.

Tədbirdə çıxış edən Özbəkistanın xarici işlər nazirinin müavini Qayrat Fazılov bildirib ki, ənənəvi keçirilən beynəlxalq festival ölkənin mədəni həyatını dolğun şəkildə zənginləşdirir, paytaxt sakinlərinə və qonaqlarına festivalın iştirakçısı olan ölkələrin mədəniyyəti ilə yaxından tanış olmağa imkan verir.

Sonda tədbirdə fəal iştirak edən qurumlara diplomlar verilib. Milli mətbəxin yüksək səviyyədə təqdim edilməsinə görə AMM də xüsusi diploma layiq görülüb.

Qeyd edək ki, milli yeməklərin satışından əldə olunan vəsait tibbi-sosial yardım kimi Özbəkistanın Daşkənd və Fərqanə şəhərlərindəki uşaq evlərinə, habelə sağlamlıq imkanları məhdud uşaqlar üçün "Mürüvvət" internat məktəblərinə köçürüləcək.

# Qastroturizm imkanlarımız İtaliyada təbliğ edilib

Dövlət Turizm Agentliyinin dəstəyi ilə Azərbaycanın qastroturizm imkanları sentyabrın 22-26-da İtaliyanın Turin şəhərində keçirilən "Terra Madre Salone del Gusto" qida festivalında tanıdılıb.

Agentlikdən bildirilib ki, Azərbaycan Turizm Bürosu və Azərbaycan Milli Kulinariya Mərkəzinin nümayəndələrinin iştirakı ilə milli stenddə Böyük Qafqaz dağları üzrə "Slou Fud" səyahət turizm marşrutu, qastronomik turizmdə "Slou Fud" turizm modelinin tətbiqi, yerli biomüxtəlifliyin qorunması üçün atılan addımlar haqqında məlumat verilib.

Həmçinin festivalda Azərbaycandan 30-dan çox məhsulun salındığı "Dad gəmisi" kataloqu əsasında hazırlanan menyu təqdim edilib. Azərbaycan Turizm Bürosunun sektor müdiri Səkinə Əsgərova tərəfindən milli "Dad gəmisi" menyusu ilə bağlı seminar keçirilib.




Tədbir çərçivəsində Azərbaycan Milli Kulinariya Mərkəzinin rəhbəri Orxan Sadıqov, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid və "Slow Food International" beynəlxalq təşkilatının Brüssel ofisinin direktoru Marta Messanın iştirakı ilə görüş keçirilib, Azərbaycanda "Slou Fud" fəlsəfəsinin və elementlərinin davamlı inkişaf etdirilməsi və qarşılıqlı əməkdaşlığa dair saziş imzalanıb.

Qeyd edək ki, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki və Qaxda həyata keçirilən "Böyük Qafqaz dağları ərazisində icma əsaslı dəyər zəncirinin genişləndirilməsi" layihəsinin nəticəsi olaraq ərsəyə gələn "Slou Fud" turizm səyahət marşrutunun əsas məqsədi kənd yerlərinin balanslı inkişafına dəstək olmaq, dayanıqlı qida sisteminə, yerli kulinariya və mədəni irsin təşviqinə, aqrobiomüxtəliflik ehtiyatlarının səmərəli idarəsi və məhsuldar istifadəsinə töhfə verməkdir. "Slou Fud" dadlı, təmiz və sağlam qidalanmanı təmin edən, milli və regional mətbəxlərin ənənələrini qoruyub saxlayan bir yanaşmadır.

Dünyanın ən böyük qida festivalı hesab olunan "Terra Madre Salone del Gusto" festivalında 130 ölkə təmsil olunub. Tədbir İtaliya Xarici İşlər Nazirliyinin dəstəyi ilə "Slow Food International" beynəlxalq təşkilatı tərəfindən təşkil edilib.

# Türkiyəyə səkkiz ayda 29,33 milyon xarici turist gəlib

Bu ilin yanvar-avqust aylarında Türkiyəyə 29,33 milyon xarici turist gəlib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz artım deməkdir.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin yaydığı məlumata görə, avqust ayında ölkəyə ümumi turist axını ötən ilin eyni ayına nisbətən 58,3 faiz artaraq 6,3 milyon nəfərə çatıb. Onların arasında almanlar çoxluq təşkil edir – 858,3 min turist. İkinci yerdə rusiyalı turistlərdir – 806 min nəfər. Bununla belə, iyul ayına nisbətən avqustda rusiyalı turist sayı 11 faiz azalıb. Ümumilikdə isə bu ilin 8 ayında Türkiyəyə 3 milyon rusiyalı turist gəlib, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 54 min nəfər çoxdur.

Qeyd edək ki, bu il Türkiyəyə gələn xarici turist ən çox iyul ayında gəlib – 6 milyon 665 min nəfər, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 52,8 faiz artım deməkdir. Bununla belə, mövcud artım statistikası pandemiyalı 2021-ci illə müqayisədə böyük görünsə də, pandemiyadan öncəki illərin göstəricisindən azdır.

Xatırladaq ki, 2018-ci ildə qardaş ölkəyə gələn əcnəbi qonaq sayı 39 milyon, 2019-cu ildə isə rekord sayda – 45 milyon nəfər (o cümlədən 7 milyon nəfər Rusiyadan) olub. 2020-ci ildə pandemiya səbəbindən xarici turist sayı cəmi 16 milyona düşmüş, 2021-ci ildə isə 30 milyona çatmışdı.

2022-ci ilin səkkiz ayında Türkiyəyə gələn hər üç turistdən biri Antalyanın, hər dörd nəfərdən biri isə İstanbulun payına düşüb.

**V.Kamal**

# Qırğız dilində "Qarabağ hekayələri"nin təqdimatı

Azərbaycanın Qırğızıstandakı Səfirliyinin təşəbbüsü və dəstəyi, Qırğızıstan Milli Yazıçılar Birliyinin iştirakı ilə nəşr edilmiş "Qarabağ hekayələri" ("Karabax Anqemeleri") kitabının geniş təqdimatı olub.




Sentyabrın 23-də keçirilən tədbirdə Qırğızıstan rəsmiləri, ədəbiyyat, elm, mədəniyyət xadimləri iştirak ediblər.

Səfir Lətif Qəndilov iştirakçılara kitab haqqında ətraflı məlumat verib. "Azərbaycanın qırğız dostları klubu"nun prezidenti Assol Moldokmatova ölkəmizin azad olunmuş bölgələrinə səfər etdiyini, Ermənistan tərəfindən törədilmiş dağıntıları öz gözləri ilə gördüyünü deyib. Şair-tərcüməçi Altınbek İsmayıl kitabın ərsəyə gəlməsindən bəhs edib.

Qeyd edək ki, 2021-ci ildə çap olunan kitabda 13 azərbaycanlı müəllifin hekayələri yer alıb. Kitabın tərcümə və nəşr edilməsinin təşəbbüskarı və müəlliflərdən biri, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevadır. Kitab beş tərcüməçi tərəfindən qırğız dilinə çevrilib.

Mərasimdə səfir Lətif Qəndilov tərəfindən tərcüməçilərə mükafat təqdim edilib.

# Markesin Azərbaycan dilində kitabı Kolumbiya diplomatına təqdim olunub

Kolumbiya xalqının fəxri Qabriel Qarsia Markesin əsərlərinin belə bir təkmil səviyyədə nəşrinə və təbliğinə görə dərin təşəkkürümü bildirirəm. Əsərlərin seçimi, kitabın tərtibatı yüksək peşəkarlıq və zövqlə hazırlanıb.

Kolumbiya Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Maria Anxelika Stir bu sözləri Dövlət Tərcümə Mərkəzində qurumun rəhbəri, Xalq yazıçısı Afaq Məsud ilə görüşdə deyib.

Diplomat Markesin Azərbaycan dilində nəşr olunan "Seçilmiş əsərləri" kitabının səfirlik tərəfindən təqdimatının keçiriləcəyini bildirib.

Görüş zamanı Azərbaycan-Kolumbiya ədəbiyyatlararası əlaqələr istiqamətində hazırlanan layihələr, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ispan dilində nəşr olunmuş "Yeddi gözəl" poemasının Kolumbiyanın dövlət və ictimai kitabxanalarına, təhsil və mədəniyyət ocaqlarına yerləşdirilməsi, Azərbaycan ədəbiyyatının, incəsənətinin, mədəniyyətinin Kolumbiyada, eləcə də digər Latın Amerikası ölkələrində tanıdılması kimi məsələlər müzakirə edilib.

# Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 249 il əvvəl...

**28 sentyabr 1773-cü ildə** Rusiyada Yemelyan Puqaçovun rəhbərliyi ilə kəndli müharibəsi başlayıb. Puqaçovun Uralda (Yatski şəhəri) başladığı üsyan tezliklə geniş miqyas alıb. Hərəkatın genişləndiyini görən İmperatriçə II Yekaterina onun üzərinə qoşun hissələri göndərib. Üsyan yalnız 1774-cü ilin sonunda yatırıldı və 1775-ci ilin yanvarında Puqaçov və ən yaxın silahdaşları Moskvada edam edildilər.

### 111 il əvvəl...

**29 sentyabr 1911-ci ildə** İtaliya Osmanlı dövlətinə müharibə elan edərək onun Şimali Afrikadakı müstəmləkələri üzərinə hücuma keçib. Tezliklə Liviyanın bir hissəsi İtaliya qoşunları tərəfindən işğal olunub. Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasının zəifləməsi aksər Avropa dövlətlərini onun müstəmləkələrini bölüşdürməyə şirnikləndirmişdi.

### 102 il əvvəl...

**30 sentyabr 1920-ci ildə** Moskvada RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə imzalanıb. Müqavilə sovet Azərbaycanının müstəqilliyinin formal xarakter daşıdığının bariz göstəricisi idi. Azərbaycan hərbi məsələlərdə bütün idarəetmə səlahiyyətlərini, iqtisadiyyatda isə taleyüklü qərarların qəbulunu, o cümlədən neft sahəsinin idarə olunmasını Rusiyaya verib.

### 84 il əvvəl...

**29 sentyabr 1938-ci ildə** Münxendə Almaniya, Britaniya, Fransa və İtaliya rəhbərləri Çexoslovakiyanın almanlar yaşayan Sudet bölgəsi ilə bağlı saziş imzalayıblar. Britaniya Baş naziri Nevill Çemberlen, Fransa Baş naziri Eduard Daladye və İtaliyanın faşist lideri Benito Mussolini Sudet bölgəsinin Almaniyaya birləşdirilməsi barədə Adolf Hitlerin təklifinə razılıq veriblər. I Dünya müharibəsinədək Almaniyanın ərazisi olmuş bölgə müharibədə almanların məğlub olmasından sonra Çexoslovakiyanın tərkibinə keçmişdi.

### 76 il əvvəl...



**30 sentyabr 1946-cı ildə** faşist Almaniyasının rəhbərliyi üzərində qurulan Nürnberq məhkəməsi (1945-ci il noyabrın 20-də başlamışdı) yekunlaşıb. İki gün ərzində oxunan hökmlərə əsasən, Hitler komandasının rəhbərləri – Gerinq, Ribbentrop, Keytel, Kaltenbruner, Rozenberq və başqaları ölüm (asılmaqla) cəzasına məhkum ediliblər. Hitlerin baş maliyyəçisi Martin Borman haqqında qiyabi ölüm hökmü çıxarılsa da, onun 80-ci illərədək Cənubi Amerikada yaşadığı bildirilirdi.

### 56 il əvvəl...

**30 sentyabr 1966-cı ildə** Böyük Britaniyanın Cənubi Afrikadakı müstəmləkəsi olan Botsvana müstəqilliyini elan edib. Botsvana 1885-ci ildə Britaniyanın protektoratlığına keçmişdi.

### 33 il əvvəl...

**30 sentyabr 1989-cu ildə** Fransanın Afrikadakı keçmiş müstəmləkələri olan Seneqal və Qambiya birləşdikləri vahid dövlətdən (Seneqambiya) çıxaraq yenidən iki ayrı dövlət olublar. 1960-cı ildə Fransanın müstəmləkəçiliyindən qurtulan Seneqal və Qambiya daha sonra vahid dövlət şəklində birləşmişdilər.

### 32 il əvvəl...



**30 sentyabr 1990-cı ildə** Azərbaycan SSR Ali Sovetinə və yerli xalq deputatları sovetlərinə seçkilər keçirilib. İlk dəfə olaraq seçkilər alternativ əsasda və çoxpartiyalı şəraitdə keçirilib. Ali Sovetə seçkilərin ilk turunda respublika üzrə 360 dairədən üçdə ikisində deputatlar seçildi, qalan dairələr üzrə təkrar seçkilər elan edildi. Şuşa rayonu istisna olmaqla Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində seçkilər baş tutmamışdı. Həmin ilin iyulunda Moskvadan vətənə qayıdan Heydər Əliyev birinci turda 340 saylı Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinin, 2 saylı Naxçıvan şəhər seçki dairəsindən isə Naxçıvan MSSR-in deputatı seçilmişdi.

### 28 il əvvəl...

**29 sentyabr 1994-cü ildə** Bakıda parlament (Ali Sovet) sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi, polkovnik Şəmsi Rəhimov qətlə yetiriliblər. Həmin vaxt Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyasında iştirak edən Prezident Heydər Əliyev bəyanat verərək bu terror aktının Azərbaycanın dövlətçiliyi əleyhinə yönəldiyini, lakin dövlətin bu təhdidlərdən sarsılmayacağını bildirmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2780
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641